YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 avqust
2024-cü il,
şənbə
№ 148 (6734)
Qiymәti
60 qәpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# 1 olaq Sentyabrda 1-ci Partiyaya səs verək!



## Prezidentin ən böyük mənəvi, siyasi dəstəkçisi...

Bax səh. 2

## Özbəkistan mətbuatında birinci xanım Mehriban Əliyevaya həsr edilmiş məqalə yayımlanıb

## Yeni Azərbaycan Partiyası qarşıda duran bütün hədəfləri reallaşdırmaq əzmindədir

Bax səh. 6

## Dünyanın 30 dövlətindən biri, müsəlman ölkələri arasında 3-cü...




## İlham Əliyev: Azərbaycan güclü idman dövlətidir

Bax səh. 2



## Sərhədlərimiz etibarlı əllərdədir...

Bax səh. 8

## Azərbaycançılıq!

İdeologiya bir xalqın adət-ənənəsini, həyat tərzini və fəaliyyət istiqamətlərini özündə ehtiva edən baxışlar sistemidir. Bir sözlə, bu sistem hər bir xalqın həyatında oynadığı əhəmiyyətli və vacib rolla onun milli-mənəvi dirçəlişinə, siyasi varlığını isbatlamağa və dövlətçiliyini möhkəmləndirməyə şərait yaradır.

Tarixi təcrübə də göstərir ki, cəmiyyətdə müəyyən inkişaf vektorlarını müəyyənləşdirən ideologiya olmadıqda dövlətin siyasi, iqtisadi və sosial siyasətində boşluqlar yaranır. Bu isə öz növbəsində cəmiyyət daxilində birbirinə zidd, ənənəvi sosial-mənəvi dəyərlərlə vəhdət təşkil etməyən yad ideyaların yaranmasına gətirib çıxarır.

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən BDU-nun tarix...

Bax səh. 8

## Orta aylıq əməkhaqqı artımı...

2024-cü ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,8 faiz artaraq 1002,8 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Orta aylıq əməkhaqqının artmasına ölkədə birinci yarımillikdə qeydə alınan əlverişli inflyasiya dəhlizi də mühüm təsir göstərib. Belə ki, 2024-cü ilin yanvar-iyun aylarında...

Bax səh. 7

## COP29 ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib

Avqustun 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesinin bütün istiqamətlərdə davam etdiyini bildirib...

Bax səh. 3

## Bəşəri dəyərlər naminə...

Dünyada əhalinin sayının, iqtisadi böhranın, ekoloji və sağlamlıq problemlərinin, aclıq dərəcəsinin, müharibə və təbii fəlakətlərin çoxalması humanitar yardım anlayışını gündəmə gətirir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) saytında qeyd edilən məlumata görə, dünyanın müxtəlif yerlərində münaqişələrə görə evlərini tərk edən insanların sayı durmadan artır. Məlumatda həmçinin bildirilib ki, hazırda 68 milyondan artıq köçkün şəxs var. Uşaqlar silahlı qruplar tərəfindən götürülür və döyüşdürülür. Eyni zamanda qadınlar zorakılığa məruz qalır və alçaldılır...

Bax səh. 8




## ABŞ-da seçki marafonu: Hansı namizəd irəlidədir?

Bax səh. 8

## İlham Əliyev: Azərbaycan güclü idman dövlətidir

# Dünyanın 30 dövlətindən biri, müsəlman ölkələri arasında 3-cü...

“Paris -2024” 33-cü Yay Olimpiya Oyunlarında idmançılarımızın çıxışları ölkəmizdə böyük həyəcanla izlənilirdi. Gələn hər qələbə sorağına görə sevinirdik və qürur hissi keçirirdik. Artıq Paris Olimpiadası da tarixə çevrilib və idmançılarımız Vətənə dönüblər. Bu günlərdə Olimpiadada ölkəmizi layiqincə təmsil edən və yüksək nəticələr qazanan idmançılarımız mükafatlandırılıblar. Bununla bağlı dövlətimizin başçısı sərəncamlar imzalayıb.

Eyni zamanda, Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib və təbriklərini çatdırıb. “Siz Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm”, - deyə ölkə Prezidenti vurğulayıb.

## “Paris -2024” - də Azərbaycan idmançılarının uğurlu çıxışları

Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. “Paris -2024” - də Azərbaycan idmançılarının çıxışları uğurlu olub. Prezident İlham Əliyev Olimpiadada Azərbaycanın dünyanın ən güclü 30 ölkəsi arasında yer almasını “çox yaxşı nəticə” kimi dəyərləndirib.

Bütövlükdə, idmançılarımız Parisdə 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanıblar. Azərbaycan komandasının heyətində cüdoçular Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) Olimpiya çempionu olublar, taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) və boksçu Alfonso Dominqes (92 kiloqram) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kiloqram), sərbəst güləşçilər Maqomedxan Maqomedov (97 kiloqram) və Giorgi Meşvildişvili (125 kiloqram) isə bürünc medala sahib çıxıblar. Bununla da Azərbaycan medal əyarına görə Tokio Olimpiadasındakı nəticəsini yaxşılaşdırıblar. Xatırladaq ki, idmançılarımız 2021-ci ildə Yaponiya paytaxtında keçirilmiş yarışda 3 gümüş və 4 bürünc mükafata sahib çıxmış, medal sıralamasında 67-ci olmuşdular.

Həmçinin Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası Paris Olimpiadasında tarixi nəticəyə imza atıb. Belə ki, final mərhələsində Zeynəb Hümmətova, Darya Sorokina, Ləman Əlimuradova, Güllü Ağalarzadə və Yelizaveta Luzandan ibarət kollektiv 3 lent və 2 topla hərəkətlərdə 31.600 xal toplayıb. Daha əvvəl 5 halqa proqramında hakimlərdən 34.850 xal alan yığma iki hərəkətin cəmində 66.450 xalla 5-ci pilləni tutub.

Qeyd edək ki, Azərbaycan “Paris-2024” Yay Olimpiya Oyunlarında 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunub. İdmançılarımızın 33-cü Yay Olimpiya Oyunlarında qazandıqları yüksək nəticələrdən məmnunluğunu bildirən Prezident İlham Əliyev deyib ki, bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir.



“Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə, komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

## Ölkəmizin hər yerində idmanla məşğul olmaq üçün gözəl şərait var

Getdikcə daha çox sayda Azərbaycan idmançısının Olimpiya Oyunlarına lisenziyalar qazanmaları və Paris Olimpiadasında komandamızın mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşması ölkəmizdə idmanın inkişafına göstərilən davamlı dövlət qayğısının nəticəsidir. 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbərliyi yeniləndi. Azərbaycanda idman və çoxminli idmançılar ordusu MOK-un yeni prezidenti İlham Əliyevin simasında öz böyük hamilərini tapdılar. MOK-un yeni rəhbərliyinin təşəbbüsü ilə respublikamızda idman təsərrüfatının yenilənməsinə, o cümlədən də bu sahədə müasir infrastruktur qurulmasına start verildi. Hazırda ölkəmiz idman infrastrukturu təminatı baxımından dünyanın inkişaf etmiş ölkələrindən geri qalmır. Təkcə belə bir faktı qeyd edək ki, son 20 ildə Prezident İlham Əliyevin göstərişləri əsasında paytaxt Bakıda və regionlarda 50-dək müasir Olimpiya İdman Kompleksi tikilərək istifadəyə verilib.

Ölkəmizin uğurla ev sahibliyi etdiyi Birinci Avropa Oyunlarına hazırlıq çərçivəsində Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyevanın böyük əməyi sayəsində həyata keçirilən layihələr respublikamızın idman infrastrukturunu əhəmiyyətli dərəcədə zənginləşdirib. Birinci Avropa Oyunlarına hazırlıq məqsədilə 5 müasir idman qurğusu-Milli Gimnastika Arenası, BMX Veloparkı, Bakı Su İdmanı Mərkəzi, Bakı Atıcılıq Mərkəzi və möhtəşəm Olimpiya Stadionu inşa edilib. Bundan başqa, yüksək dünya standartları səviyyəsində yaradılan atletlər kəndi barədə də ən xoş söz söyləməlk mümkündür. Paytaxtda və regionlarda yeniyetmələr, gənclər yaradılan idman obyektlərində məşqlər edir və böyük idmana doğru irəliləyirlər. Prezident İlham Əliyev idmançılarımızın müəyyən istirahətlərdən sonra yeni yarışlara hazırlıqlara start verəcəklərinə diqqət çəkərək bildirib ki, indi bütün ölkə üzrə idmanla məşğul olmaq üçün gözəl şərait var: “Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq”.




## İdmançıların yüksək nəticələrə ruhlandırılması

Respublikamızda yeniyetmələr və gənclər arasında idmana marağın artmasında, onun kütləviliyinin təmin olunmasında Prezident İlham Əliyevin hər il beynəlxalq yarışlarda yüksək nəticələr qazanan idmançılarla şəxsən görüşməsi, onları mükafatlandırması və dövlət təltiflərinə layiq görməsi mühüm rol oynayır. Bu, gənclərimizə güclü stimul verərək onları yeni-yeni nailiyyətlər qazanmağa ruhlandırır. Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Paris-2024” XXXIII Yay Olimpiya Oyunlarında parlaq qələbə ilə Olimpiya çempionu adını qazanan cüdoçular Hidayət Heydərova və Zelim Kotsoyevə telefon açaraq onları şəxsən təbrik ediblər. Bundan başqa, Birinci vitse-prezident Mehriban Əiyeva Olimpiadada medallar qazanan idmançılarımız barədə şəxsi sosial şəbəkə hesabında paylaşımlar edib. Eyni zamanda, Mehriban xanım Əliyeva sosial şəbəkə hesablarında bədii gimnastika üzrə qrup hərəkətləri komandasını Yay Olimpiya Oyunlarında tarixi nəticəyə imza atması münasibətilə təbrik edib. Birinci vitse-prezidentin bununla bağlı etdiyi paylaşımında oxuyuruq: “Əhsən! Sizinlə fəxr edirəm! Əziz gimnastlar, sizin zəhmətiniz, mətanətiniz və ən yaxşı olmaq istəyiniz sayəsində əldə olunan tərəqqi göz qabağındadır! Məharətinizə, qələbə əzminizə və ən mürəkkəb elementləri zərifliklə yerinə yetirdiyinizə görə sağ olun! Sizə yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram! Sizi sevirəm!”.

Qızıl medal qazanan idmançılara edilən zənglər, bəhs olunan paylaşımlar Azərbaycanın dövlət başçısının, birinci vitse-prezidentin xaraktercə səmimi olduqlarının, eyni zamanda, Azərbaycan adına yazılan hər uğura necə böyük həssaslıqla yanaşdıqlarının ifadəsidir. Dövlət başçısı, birinci vitse-prezident ölkəni, bütün Azərbaycan xalqını təmsil edirlər. Onların təbrikləri də xalqın adından ifadə olunan təbriklərdir. Belə səmimi münasibət idmançılarımız üçün həm böyük motivasiya, həm də böyük məsuliyyətdir. Müxtəlif meydanlarda yarışa çıxan idmançılarımız bütün Azərbaycanın gözünün və dualarının onlarda olduğunu bilərək daha əzmlə mübarizə aparırlar. Prezident İlham Əliyev qəbulda Azərbaycan idmançılarının yarışlarda əzmkarlıq göstərdikləri kimi, həm də yüksək mənəvi keyfiyyətlərə mallik olduqlarına xüsusi diqqət çəkib. Belə idmançılarımız cəmiyyətimiz, gənclərimiz üçün nümunədirlər. Onların uğurları ölkəmizdə idmanın kütləviliyinə, yeniyetmələrdə, gənclərdə vətənpərvərlik ruhunun artmasına özünün müsbət təsirini göstərir ki, dövlətin, şəxsən Prezident İlham Əliyevin istəyi, arzusu da elə budur. “Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Mötəbər yarışlardan sonra yüksək nəticələr qazanan idmançıların mükafatlandırılması ənənəsinə bu dəfə də sadiq qalınıb. Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla XXXIII Yay Olimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilib

- Birinci yeri tutan hər bir idmançıya 400 000 (dörd yüz min) manat, onun məşqçisinə 200 000 (iki yüz min) manat;
- İkinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;
- Üçüncü yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat məbləğində mükafat ayrılıb.

Eyni zamanda, İlham Əliyev Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi Prezidenti kimi də 33-cü Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələr göstərdiklərinə görə mükafatların müəyyən edilməsi məqsədilə Sərəncam imzalayıb. Həmin Sərəncama əsasən,

- Birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;
- İkinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat;
-Üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min) manat, onun məşqçisinə 25 000 (iyirmi beş min) manat;
- Komandanın baş məşqçisi - idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə) mükafat nəzərdə tutulub.

Prezident İlham Əliyevin imzaladığı digər bir Sərəncamla isə Azərbaycan Milli Olimpiya komandası üzvləri müxtəlif dövlət təltiflərinə layiq görülüblər.

*Mübariz ABDULLAYEV*

# Prezidentin ən böyük mənəvi, siyasi dəstəkçisi...

## Özbəkistan mətbuatında birinci xanım Mehriban Əliyevaya həsr edilmiş məqalə yayımlanıb

Azərbaycanın Özbəkistandakı səfirliyi, bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Özbəkistan mətbuatında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya həsr edilmiş məqalə yayımlanıb.

Mədəniyyət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, müəllifi Azərbaycanın Xalq yazıçısı, tanınmış jurnalist Elmira Axundova olan məqalə özbək və rus dillərində ölkənin aparıcı “UzA” Milli İnformasiya Agentliyində, “aniq.uz”, “uzdiplomat.uz”, www.kultura.uz portallarında dərc edilib.

“Uki, kimgadir ortig’i bilan berilgay...” (“Ta, komu mnoqoe dano...”) adlı məqalədə Birinci vitse-prezident Mehriban xanım Əliyeva haqqında ən səmimi fikirlər, ülvi hisslər yer alıb. Yazıda birinci xanım Mehriban Əliyevanın ölkəmizin sosial, mədəni, ictimai, siyasi həyatında oynadığı aparıcı roldan söz açılır. Bildirilir ki, Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda hər il onlarla uşaq bağçası, körpələr evi, internat məktəbi, xəstəxana və s. bərpa olunaraq istifadəyə verilir. Bundan əlavə, Azərbaycanda uşaq evlərinin və sığınacaqların institusionallaşdırılması, valideyn himayəsindən məhrum olmuş uşaqların tam hüquqlu ailələrə verilməsi hərəkatı başlayıb. Birinci xanım əhalinin ən həssas təbəqələrinə, ilk növbədə, xəstə uşaqlara, eləcə də sosial müdafiədən, valideyn himayəsindən və qayğısından məhrum olan balaca uşaqlara kömək etməyi özünün vətəndaşlıq borcu hesab edir.

Məqalədə o da vurğulanıb ki, Heydər Əliyev Fondunun xeyriyyə təşəbbüslərinin əks-sədası Azərbaycanın hüdudlarından çox-çox uzaqlara da yayılır. Fondun müxtəlif ölkələrdə gördüyü xeyirxah işlər həmin ölkələrin tarixinə, vətəndaşlarının qəlbinə əbədi olaraq yazılacaq.

Yazıda, həmçinin ölkəmizin mədəni-ictimai, idman həyatında Mehriban xanım Əliyevanın xidmətlərindən də söz açılır. Qeyd edilir ki, Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə regional deyil, həm də qlobal miqyas alıb. Məhz onun təşəbbüsü ilə Azərbaycan muğamı və dünyanın ən qədim tarixi-arxeoloji qoruğu olan Qobustan yaşayış məskəni, aşıq sənəti və Azərbaycan kəlağayısı, Novruz bayramı və milli atüstü oyun olan çövkən dünya qeyri-maddi mədəni irs siyahısına salınıb.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə idmanın inkişafındakı xidmətlərindən söz açılarkən qeyd olunub ki, Avropada idmanın inkişafında xüsusi xidmətlərindəki yüksək nailiyyətlərinə görə ona Avropa Olimpiya Komitələrinin ali mükafatı - Ali orden təqdim edilib. Oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyət, xalqımızın mədəni irsinin beynəlxalq səviyyədə geniş təbliği və Birinci Avropa Oyunlarının təşkilindəki xidmətlərinə, yarışlarda əldə edilmiş böyük nailiyyətlərə görə isə Mehriban xanım Əliyeva “Heydər Əliyev” ordeni ilə təltif olunub.

Eyni zamanda, bildirilib ki, Azərbaycan xalqının, dövlətinin, dövlətimizin başçısının ən çətin, gərgin günlərində Mehriban xanım hər zaman xalqla həmrəylik nümayiş etdirib, Prezident İlham Əliyevin ən böyük mənəvi, siyasi dəstəkçisi olub.

İşğaldan azad olunun torpaqlarımızda aparılan quruculuq işlərində də Mehriban xanımın böyük xidmətlərinin olduğu vurğulanan məqalədə diqqətə çatdırılıb ki, Qələbədən qısa müddət sonra həmin ərazilərdə “Böyük Qayıdış” və genişmiqyaslı bərpa-quruculuq işləri başlayıb. Bu prosesə rəhbərliyi Prezident İlham Əliyevlə birlikdə birinci xanım Mehriban Əliyeva da edir. Qarabağın bərpa edilmiş hər bir abidəsində, hər bir məscid və ya muzey kompleksində birinci xanıma xas olan incə zövq və heyrətamiz zəriflik hissi sezilir.












# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib



Avqustun 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesinin bütün istiqamətlərdə davam etdiyini bildirib.

Təşkilat Komitəsinin sədri Prezident İlham Əliyevin iyulun 20-də 2-ci Şuşa Qlobal Media Forumunda COP29-la bağlı vacib tezislər səsləndirdiyini, dövlətimizin başçısının yanaşmasının inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulmasından ibarət olduğunu vurğulayıb.

Prezident Administrasiyasının rəhbəri Prezident İlham Əliyevin COP29 gündəliyimizi proqnozlaşdırılabilən, aydın məqsədlərə və nəticələrə köklənmiş gündəlik kimi xarakterizə etməsinə diqqət çəkərək dövlət qurumlarının, COP29 heyətinin bundan sonra da var gücü ilə çalışmasının vacibliyini vurğulayıb.

Samir Nuriyev noyabrın 12-13-də keçiriləcək Liderlər Sammitinə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəflərinə dəvətlər ilə bağlı tam inklüzivliyin təmin edildiyini bildirib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni maliyyə hədəfi üzrə mövcud fikir ayrılıqlarının aradan qaldırılması üçün səmimi səylər göstərdiyini və bu xüsusda, iyulun 26-27-də müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində Şamaxıda qeyri-rəsmi məsləhətləşmələr kimi innovativ format təşkil etdiyini diqqətə çatdırıb.

Samir Nuriyev bildirib ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq "Ev Sahibi Ölkə" Sazişinin yekun mətni tam razılaşdırılıb.

Təşkilat Komitəsinin sədri Azərbaycanın COP29 təşəbbüslərinin geniş ictimaiyyətə açıqlandığını, COP atəşkəsi və İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması təşəbbüslərinin beynəlxalq müstəvidə daha çox diqqət çəkdiyini bildirib.

Samir Nuriyev Azərbaycan tərəfindən inkişaf etməkdə kiçik ada ölkələri üçün Texniki Yardım Fondunun yaradılmasına, "Azərkosmos" tərəfindən kiçik ada ölkələrində iqlim dəyişmələri üzrə layihələrin həyata keçirilməsinə dair anlaşma memorandumlarının avqust ayının sonlarında Millətlər Birliyi (Commonwealth) təşkilatı ilə imzalanacağı barədə məlumat verib.

COP29 Beynəlxalq Məşvərət Komitəsinin və COP 29 Elm Şurasının iclaslarına toxunan Samir Nuriyev hər iki təsisatın imkanlarından maksimum dərəcədə faydalanmağın vacibliyini qeyd edib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev COP29-la bağlı ümumi gedişat, müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində iyulun sonlarında Şamaxıda keçirilmiş qeyri-rəsmi məsləhətləşmələr, COP29 komandasının nəzərdə tutulan xarici səfərləri barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Arif Səmədov COP29 çərçivəsində Liderlər Sammitinə hazırlıq barədə çıxış edib.

Daxili işlər naziri Vilayət Eyvazov COP29 zamanı ictimai təhlükəsizliyin təmin edilməsi tədbirləri barədə danışıb və bütün zəruri tədbirlərin həyata keçirildiyini deyib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev COP29 zamanı nəqliyyatın təşkili, o cümlədən hava limanlarının qəbul imkanları barədə çıxış edib.

Sonra COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarainin COP29-un iqlim üzrə yüksək səviyyəli çempionunun fəaliyyəti barədə çıxışı dinlənilib.

Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev COP29-la əlaqədar dövlət sərhədindən buraxılış məntəqələrinin fəaliyyəti barədə məlumat verib.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri Nərmin Carçalova təşkilati-logistika məsələləri, Bakı Olimpiya Stadionunda aparılan işlər, "Mavi" və "Yaşıl" zonalar və orada tədbirlərin, pavilyonların təşkili barədə danışıb.

Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender Hub" ictimai birliyinin sədri Məryəm Məcidova qeyri-hökumət təşkilatlarının COP29-la bağlı fəaliyyəti barədə məlumat verib.

İclasın sonunda COP29 Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Yeni reallıqlardan irəli gələn hədəflərlə...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 40 saylı Gəncə üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Musa Quliyevin YAP Gəncə şəhərində seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov partiyanın keçdiyi şərəfli inkişaf yolundan danışıb. O, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm nailiyyətlər əldə etdiyini deyib. Qeyd olunub ki, bu gün sıralarında 700 mindən çox insanı birləşdirən YAP gücünü xalqın dəstəyindən alır.

Deputatlığa namizəd Musa Quliyev YAP-ın seçki platforması barədə məlumat verib. O, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycanın tərəqqi yolunda inamla addımladığını, qüdrətli və qalib dövlət kimi yüksək nüfuza malik olduğunu söyləyib.

M.Quliyev ölkəmizin siyasi sistemində aparıcı rola malik olan Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi Zəfərdən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə və qələbə əzmi ilə qatıldığını deyib.

Seçicilər parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla" şüarı ilə gedən YAP-ın namizədini dəstəkləyəcəklərini deyiblər.



# YAP ümumxalq etimadı əsasında ölkəmizə mühüm nailiyyətlər qazandırıb




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 53 saylı Yevlax - Mingəçevir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əli Hüseynlinin Mingəçevir şəhərində seçicilərlə görüşü keçirilib.

YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev qeyd edib ki, YAP ötən dövr ərzində məqsədyönlü fəaliyyətini uğurla davam etdirib, ümumxalq dəstəyi və etimadı əsasında ölkəmizə mühüm nailiyyətlər qazandırıb. O vurğulayıb ki, bu seçkilərə də böyük qələbə əzmi ilə qatılan Yeni Azərbaycan Partiyası xalqın dəstəyinə güvənir.

Deputatlığa namizəd Əli Hüseynli əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Bildirilib ki, ölkəmizdə indiyə qədər bütün sahələri əhatə edən çoxşaxəli islahatlar müasir çağırışlara və reallıqlara uyğun, ardıcıl olaraq davam etdirilib, dövlət idarəçiliyinin səmərəliliyi və vətəndaş məmnunluğu artırılıb, Azərbaycan dünyada müstəqil siyasət yürüdən, özünəməxsus inkişaf yolu olan islahatçı ölkə imici qazanıb: "Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanı daha parlaq gələcək gözləyir".

Görüşdə çıxış edən partiya fəalı Xurşud Zamanova və digərləri seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.




# "Xalqın gələcəyini düşünən Yeni Azərbaycan Partiyasını dəstəkləyirik"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 6 saylı Ordubad-Culfa seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Vüqar Rəhimzadənin YAP Ordubad rayon təşkilatının qərargahında ilk dəfə səs verəcək gənclərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Ordubad rayon təşkilatının sədri Ehtibar İsmayılov Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycanın 1993-cü ildən bu günədək keçdiyi inkişaf yolundan və Yeni Azərbaycan Partiyasının ölkəmizin tərəqqisində müstəsna rolundan bəhs edib. O bildirib ki, Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir: "Son 20 ildən artıq dövrdə bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı zirvəyə yüksəldib".

Deputatlığa namizəd Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycanın dünəninin, bugününün və gələcəyinin əsası olan Heydər Əliyev ideyaları müasir müstəqil Azərbaycanın inkişaf yolunu müəyyənləşdirən mayakdır. Dövlət müstəqilliyinin bərpasının ilk illərinin xaosundan, anarxiyasından, iqtisadi böhranından xilas olan Azərbaycan 1993-cü ildən bu günədək dünyanı heyrətləndirən uğurlara imza atıb. Namizəd vurğulayıb ki, tarixi Zəfərimiz bu uğurların zirvəsində dayanır.

V.Rəhimzadə Azərbaycan gənclərinin milli ruhda tərbiyə olunduğunu, milli-mənəvi dəyərlərə bağlı olduqlarını önə çəkərək qalib ölkənin daha möhtəşəm uğurlara doğru inamla irəliləməsinə dəstək olmaq üçün seçiciləri fəal olmağa çağırıb.

Tədbirdə çıxış edən təşviqat qrupunun üzvləri Səkinə Tağıyeva, Fərman Rəsulov və digərləri seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

İlk dəfə səs verəcək gənclərdən Abbas Hacıyev çıxış edərək gənclərin dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətə dəstəyi və Yeni Azərbaycan Partiyasına inamından bəhs edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan YAP-a xalqın sevgisi sonsuzdur: "Partiya gənclərə daim diqqət və qayğı ilə yanaşır, onlara potensial imkanlarını ortaya qoymaq üçün geniş imkanlar yaradır. Dövlətin, xalqın gələcəyini düşünən Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəyik".

Qeyd edək ki, deputatlığa namizəd Vüqar Rəhimzadənin Ordubad rayonunun mərkəzində də seçicilərlə görüşü olub.



# Yeni dövr yeni uğurlar vəd edir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 109 saylı Qazax seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səməd Seyidovun rayonun Orta Salahlı, Qazaxbəyli və Aşağı Salahlı kəndlərində seçicilərlə görüşləri keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev Yeni Azərbaycan Partiyasının iştirak etdiyi bütün seçkilərdə qazandığı qələbələrdən bəhs edərək partiyanın 1 sentyabr - növbədənkənar parlament seçkilərində də qalib gələcəyinə əminliyini ifadə edib. "Yeni dövr ölkəmizə yeni uğurlar vəd edir", - deyə vurğulanıb.

Deputatlığa namizəd Səməd Seyidov Azərbaycan xalqının Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq olduğunu və Prezident İlham Əliyevin siyasətini ürəkdən dəstəklədiyini bildirib.

O, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə xalqımızın qazandığı möhtəşəm qələbələrdən və tarixi uğurlardan geniş bəhs edib. Səməd Seyidov vaxtilə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Qazax rayonunun dörd kəndinin bir güllə atılmadan, qan tökülmədən geri qaytarılmasının Prezident İlham Əliyevin uğurlu və qətiyyətli siyasətinin nəticəsi olduğunu diqqətə çatdırıb.



Görüşlərdə, Bəsti Ələkbərova, Müqabil Məmmədov, Xatın Hüseynxanova, Məmməd Yusifov, Fərhad Qocamanov, Vaqif Nəsibov, Barat Alıyev və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədini dəstəkləməyə çağırıblar.

# “Yeni qələbələrə imza atacağıq!”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 61 saylı Qusar seçki dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Azər Badamovun rayonun Urva və Çiləgir kəndlərində seçicilərlə görüşü keçirilib.

YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov qarşıdakı parlament seçkilərinin xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi olacağına əminliyini ifadə edərək seçiciləri seçki prosesində fəal iştirak etməyə çağırıb.

Deputatlığa namizəd Azər Badamov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, ölkədə mövcud olan xalq-iqtidar birliyindən, milli həmrəyliyin YAP-ın siyasi xəttində mühüm əhəmiyyətə malik olmasından bəhs edib: “Yeni reallıqlar fonunda milli həmrəyliyimiz daha da güclənəcək, birlikdə yeni uğurlara imza atacağıq”.

Görüşdə Milli Qəhrəman, şəhid Çingiz Qurbanovun atası Salman Qurbanov, təşviqat qrupunun üzvü Neva Abdurahmanova, kənd sakini Nizami Əliyarov və başqaları çıxış ediblər.

Seçicilər Yeni Azərbaycan Partiyasının xalqın etimadını doğrultduğunu bildirərək daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklərini söyləyiblər.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd Azər Badamov Çiləgir kəndində şəhid Murad İskəndərovun ailəsini də ziyarət edib.



# Güclü dövlət, yüksək rifah...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 106 saylı Tovuz seçki dairəsindən namizədliyi irəli sürülmüş Nizami Səfərov rayonun Qədirli-Cilovdarlı və Xatınlı kəndlərində seçicilərlə görüşlər keçirib.

YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının şərəfli inkişaf yolu keçdiyini və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni nailiyyətlərə imza atdığını qeyd edib. O, yeni dövrün reallıqlarına uyğun hədəflərin uğurla reallaşdırıldığını diqqətə çatdırıb.



Deputatlığa namizəd Nizami Səfərov ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa edildiyini, tarixi Zəfərdən sonra Azərbaycanın yeni inkişaf mərhələsinə daxil olduğunu deyib, hazırda işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və yenidənqurma işlərindən danışıb. O vurğulayıb ki, YAP-ın namizədlərini dəstəkləmək uğurlu inkişafı, parlaq gələcəyi seçməkdir: “Amalımız hər zaman yüksək rifah, güclü dövlətdir”.

Deputatlığa namizəd Xatınlı kənd sakinləri - Vətən Müharibəsi Qəhrəmanı Yaşar Əhmədov və Vətən müharibəsi qazisi Hüseyn Mustafayevin ailələrini ziyarət edib.

# “Ucarlı seçicilər YAP-ın namizədinə səs verəcəklər”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 94 saylı Ucar seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ramil Həsənin rayonun Qarabörk kəndinin seçiciləri ilə görüşü keçirilib.

YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva qeyd edib ki, bu gün ölkəmiz yeni inkişaf dövrünü yaşayır. Müstəqillik tarixində respublikamız güclü bir dövlətə çevrilib. Prezident İlham Əliyev milli maraqları yüksək səviyyədə təmin edən məqsədyönlü siyasət həyata keçirir və Azərbaycana möhtəşəm qələbələr qazandırır.

Deputatlığa namizəd Ramil Həsən Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında geniş məlumat verərək YAP-ın qazandığı uğurlar və gələcək hədəfləri barədə danışıb. O, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə suverenliyini bərpa edən Azərbaycanın bütün ərazisində ilk dəfə keçiriləcək parlament seçkilərində namizədliyinin irəli sürülməsindən qürur duyduğunu ifadə edib. Onun sözlərinə görə, dövlət başçısı İlham Əliyevin ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə, milli və regional təhlükəsizliyin təmin olunmasına hədəflənmiş müstəqil və uzaqgörən siyasəti sayəsində yeni reallıqlar yaranıb, Azərbaycanın qarşısında yeni perspektivlər açılıb.

Ramil Həsən yenidən Milli Məclisin deputatı seçiləcəyi təqdirdə ona göstərilən inam və etimadı layiqincə doğrultmağa çalışacağını söyləyib.

Tədbirdə təşviqat qrupunun üzvləri Nurməmməd Tağıyev, Rəna Cəfərova və şəhid atası Əli Vəliyev çıxış ediblər. Qeyd olunub ki, Azərbaycanın bugünkü inkişafının təməlində Heydər Əliyev siyasəti dayanır. Çıxışçılar uğurların davamlı olması üçün seçiciləri Yeni Azərbaycan Partiyasını dəstəkləməyə çağırıblar.

Qeyd edək ki, deputatlığa namizəd rayonun Qarabörk kəndində Birinci Qarabağ müharibəsi şəhidi İsmayıl Nəzərovun, Vətən müharibəsi şəhidləri Coşqun Məmmədovun və Hikmət İbrahimovun ailələrini ziyarət edib.



# Davamlı inkişaf yolunda...



Sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 76 saylı Lənkəran-Masallı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Cavanşir Paşazadə rayonun Vilvan kəndində seçicilərlə görüşüb.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev YAP-ın hər zaman ictimai-siyasi proseslərdə aktiv iştirak etdiyini, yarandığı vaxtdan etibarən mühüm uğurlar və qələbələr qazandığını diqqətə çatdırıb. O, partiyanın sentyabrın 1-də keçiriləcək parlament seçkilərinə də yüksək səviyyədə hazırlaşdığını qeyd edib.

Deputatlığa namizəd Cavanşir Paşazadə YAP-ın seçki platforması haqqında məlumat verib. O qeyd edib ki, bu gün müstəqil ölkəmiz davamlı inkişaf yolundadır: “Ölkə başçısı İlham Əliyevin reallaşdırdığı layihələr, apardığı islahatlar nəticəsində bütün bölgələrdə, o cümlədən Lənkəran rayonunda mühüm nailiyyətlər qazanılıb. Əhalinin rifahının yüksəldilməsi və insanların layiqli həyat şəraiti daim diqqətdə saxlanılır”.

Qeyd edək ki, həmin gün Cavanşir Paşazadə Vilvan kəndində şəhid Nahid Səfərovun ailəsini ziyarət edib.



# “Çoxəsrlik dövlətçilik tariximizin yeni qürurverici səhifələri yazılır”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 114 saylı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Vüqar İskəndərovun YAP Şəki rayon təşkilatının qərargahında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov partiyanın seçki platforması haqqında ətraflı məlumat verib. O vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ölkənin aparıcı siyasi qüvvəsidir: “YAP Azərbaycanın daha da qüdrətlənməsinə, xalqımızın rifah halının yaxşılaşmasına dəyərli töhfələr verir”.

Deputatlığa namizəd Vüqar İskəndərov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan dövləti tarix yazır. Möhtəşəm nailiyyətlər və qələbələrin nəticəsidir ki, budəfəki parlament seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün ərazisində keçiriləcək: “Çoxəsrlik dövlətçilik tariximizin yeni şanlı səhifələri yazılır”.

Deputatlığa namizəd qeyd edib ki, şəhid ailələri və müharibə iştirakçılarına dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilir.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri - şəhid Səbuhi İskəndərlinin anası Gülnarə Mustafayeva, şəhid Toğrul Nağıyevin anası Əntiqə Nağıyeva, Vətən müharibəsi iştirakçılarından Rahim Camalov, Taleh Urfansoy və digərləri çıxış ediblər. Onlar seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və uğurlarımızın davamı naminə YAP-ın namizədinə səs verməyə çağırıblar.

Öz növbəsində çıxış edən seçicilər 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.



# “Gənclərin seçimi dəyişməzdir!”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində avqustun Yeni Azərbaycan Partiyası tərəfindən (YAP) 78 saylı Lənkəran kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Anar İsgəndərovun YAP Lənkəran rayon təşkilatının qərargahında gənc seçicilərlə görüşü keçirilib.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev qeyd edib ki, gəncləri Azərbaycanın bu günü, sabahı və ümidi adlandıran Heydər Əliyev hər zaman milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər, sağlam gəncliyin yetişməsinə xüsusi diqqət yetirib, bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirib: “Bu gün gənc nəslin xalqımıza məxsus zəngin milli-mənəvi dəyərlər əsasında - yüksək vətənpərvərlik ruhunda yetişdirilməsi istiqamətində uğurlu dövlət siyasəti həyata keçirilir”.

Deputatlığa namizəd Anar İsgəndərov Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında məlumat verib. O vurğulayıb ki, ölkəmizdə gənclərin fiziki və mənəvi inkişafı istiqamətində sistemli fəaliyyət həyata keçirilir: “Bu sahədə Dövlət proqramlarının uğurla icra olunması, kadr islahatları çərçivəsində gənclərə yüksək etimad göstərilməsi və digər addımlar cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin inkişafı, onların həm cəmiyyət həyatının müxtəlif sahələrində fəal iştirakı, həm də ölkəni beynəlxalq müstəvidə layiqincə təmsil etməsi baxımından müstəsna əhəmiyyətə malikdir”.



Deputatlığa namizəd gənc seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Çıxış edən gənc seçicilər YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar. “Gənclərin seçimi dəyişməzdir!”, - deyə bildirilib.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd Anar İsgəndərov rayonun Gərmətük və İstisu qəsəbələrində də seçicilərlə görüşüb.

# "Seçkilər xalqın öz doğma partiyasına sarsılmaz inamını əks etdirəcək"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 9 saylı Binəqədi ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Kamaləddin Qafarovun qadın seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib

YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov ölkəmizin olduqca mühüm siyasi proses - parlament seçkiləri ərəfəsində olduğunu bildirib. O, müstəqil Azərbaycanın tarixində ilk dəfə Milli Məclisə seçkilərin bütün ölkə ərzisində keçiriləcəyini diqqətə çatdıraraq seçiciləri fəal olmağa və partiyanın namizədinə səs verməyə çağırıb: "Şübhə yoxdur ki, seçkilər xalqın öz doğma partiyasına sarsılmaz inamını əks etdirəcək".



Çıxış edən deputatlığa namizəd Kamaləddin Qafarov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Onun sözlərinə görə, Azərbaycan qadınları ölkəmizin inkişafı üçün daim əzmlə çalışır: "Qadınlar öz təşəbbüskarlığı və fəallığı ilə bütün sahələrin inkişafına layiqli töhfələrini verirlər. Ölkəmizdə həyata keçirilən gender siyasəti bir çox dövlətlər üçün nümunədir".

Tədbir iştirakçılarından Səkinə Babayeva, şəhid İlham Hacıyevin anası Tamara Hacıyeva, şəhid Cəmil Nəcəfovun anası Mətanət Nəcəfova, seçici Ülviyyə Zeynalova və digərləri çıxış ediblər.

Seçicilər YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# "Yenidən Yeni Azərbaycan Partiyası!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 57 saylı Xaçmaz şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ağalar Vəliyevin Xaçmaz rayonunda seçicilərlə görüşü keçirilib.

YAP Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb. Qazanılan uğurlara diqqəti cəlb edən M.Balaqadaşov "ölkəmizdə ictimai-siyasi sabitlik, milli təhlükəsizlik, vətəndaş həmrəyliyi və xalq-iqtidar birliyi təmin olunub, azərbaycançılıq ideologiyası əsasında dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızın vahid yumruq kimi birləşərək Azərbaycanın qarşısında duran ən ümdə vəzifənin yerinə yetirilməsinə - tarixi ədalətin bərpasına, respublikamızın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsinə nail olunub", - deyə vurğulayıb.

Deputatlığa namizəd Ağalar Vəliyev əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, ölkəmizdə insan amili və vətəndaş mənafeyinə əsaslanan sosialyönümlü islahatlar nəticəsində əhalinin həyat şəraiti yaxşılaşdırılıb, cəmiyyətin bütün təbəqələri dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub: "Bu gün Azərbaycan dövlətinin sosial siyasət sahəsində başlıca məqsədi insana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması və sosial ədalət prinsipinin daim qorunmasıdır. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikri həyata keçirilən sosialyönümlü siyasətin əsasını təşkil edir".



Tədbir iştirakçılarından şəhid atası Fərhad Qafarov, Emil Tağıyev, Gündüz Hacıyev, Rübabə İsmayılova, Nadirşah Süleymanov, Valeh Həsənov, Arif Əşrəfov, Yetkin Mehmanov, Nazim Ağayev, Abasyar Heydərov, İbrahim Həsənov və Süreyya Əmirova çıxışlarında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər isə parlament seçkilərində bir daha Yeni Azərbaycan Partiyasına etimad göstərəcəklərini söyləyiblər. "Seçimimiz yenidən Yeni Azərbaycan Partiyasıdır!", - deyə vurğulanıb.

Deputatlığa namizəd, həmçinin məhəllə görüşləri də keçirib.

# Rifah və inkişaf naminə...



Azərbaycan Respublikası Milli Məclisinə 2024-cü il sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Müşfiq Cəfərovun seçicilərlə görüşü keçirilib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov Yeni Azərbaycan Partiyasının seçkilərə yüksək səviyyədə hazırlaşdığını vurğulayıb. O, seçiciləri seçki prosesində fəal iştirak etməyə çağırıb.

Deputatlığa namizəd Müşfiq Cəfərov isə qeyd edib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. O, Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında geniş məlumat verərək YAP-ın qazandığı uğurlar və gələcək hədəfləri barədə danışıb.

Tədbirdə təşviqat qrupunun üzvləri çıxış edərək seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıblar. "Rifah və inkişaf naminə Yeni Azərbaycan Partiyasına dəstəyimizi davam etdirək!", - deyə vurğulanıb.

Seçicilər də 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.



# "Müasir Azərbaycan öz adını tarixə əbədi həkk etdirib"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 83 saylı Beyləqan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Şahin İsmayılovun seçicilərlə görüşü keçirilib.

YAP Beyləqan rayon təşkilatının sədri Müşfiq Səfərov bildirib ki, YAP "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığı seçki marafonunu qələbə ilə başa vurmaq gücündədir.

Deputatlığa namizəd Şahin İsmayılov YAP-ın seçki platforması barədə ətraflı məlumat verib. O, Azərbaycanda bütün sahələri əhatə edən uğurlu inkişafdan, o cümlədən müasir tariximizin ən mühüm hadisəsi olan ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasından bəhs edib. Şahin İsmayılov müasir Azərbaycanın Ulu Öndər Heydər Əliyevin görmək istədiyi qalib və qüdrətli dövlət olduğunu, zirvələr fəth edərək adını tarixə əbədi həkk etdirdiyini söyləyib.

Tədbirdə Bayram Muradov, Hümbət Pəsiyev və başqaları çıxış edərək seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar.



# "Hər bir uğur gələcəyə sərmayədir"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 103 saylı Şəmkir kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nurlan Həsənovun seçicilərlə növbəti görüşü keçirilib.

YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev bildirib ki, qədirbilən Azərbaycan xalqı hər zaman Ümummilli Lider Heydər Əliyevin siyasi irsinə sadiqdir. O vurğulayıb ki, Ulu Öndərin xalqımıza siyasi mirası olan Yeni Azərbaycan Partiyası keçirilən bütün seçkilərdə inamlı qələbələr qazanaraq tarixi uğura imza atıb. Partiyanın hər zaman olduğu kimi bu seçkilərə də yüksək səviyyədə hazırlaşdığını deyən F.Vəliyev YAP-ın parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb.

Deputatlığa namizəd Nurlan Həsənov bildirib ki, Azərbaycan tarixdə heç zaman bugünkü kimi qüdrətli olmayıb: "Daxili və xarici siyasətdə əldə olunan uğurlar, şanlı Ordumuzun parlaq Zəfəri nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi dövlətin milli gücünü daha da artırıb. Hər bir uğur gələcəyə sərmayədir. Əminəm ki, əldə olunan tarixi nailiyyətlərə görə seçicilər parlament seçkilərində bir daha YAP-a etimad göstərəcəklər".



Görüş iştirakçıları çıxışlarında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar.

# "Azərbaycan xalqı reallıqları düzgün dəyərləndirir"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Asiman Babayevin YAP Şahbuz rayon təşkilatının qərargahında gənc seçicilərlə görüşü keçirilib.

YAP Şahbuz rayon təşkilatının sədri Rizvan Məmmədov bildirib ki, ötən illərə nəzər saldıqda müstəqil dövlət quruculuğunda, ölkəmizin gücünün daha da artmasında Yeni Azərbaycan Partiyasının böyük uğurlara imza atdığı aydın görünür: "Yüksək siyasi mədəniyyətə və intellektual səviyyəyə malik Azərbaycan xalqı reallıqları düzgün dəyərləndirir və heç şübhəsiz, qarşıdan gələn parlament seçkilərində bir daha YAP-a etimad göstərəcəkdir".



Deputatlığa namizəd Asiman Babayev əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, əldə olunan tarixi nailiyyətlər və parlaq qələbələr Azərbaycanda Heydər Əliyev siyasətinin alternativinin olmadığını bir daha təsdiqləyir: "Bu gün qürurla ifadə edirik ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti Azərbaycanın qabaqcıl ölkələr sırasında yer almasını şərtləndirib".

Tədbirdə, həmçinin Gülanə Mürşüdova, Həyat İsmayılova, Aytən Mahmudova, Elnur Eylazov və digərləri çıxış edərək ümumxalq partiyası olan YAP-ın imza atdığı uğurlara və qarşıda duran hədəflərə diqqəti yönəldiblər.

Seçicilər isə YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# Yeni dövr şanlı qələbələrlə başlayıb, möhtəşəm uğurlarla davam edir



**56 saylı Şabran-Xaçmaz seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Mahir Süleymanlı yap.org.az saytına müsahibə verib**

**- Mahir müəllim, sentyabrın 1-də ölkəmizdə keçiriləcək növbədənkənar parlament seçkilərinin təşviqat mərhələsi uğurla davam edir. Günümüzün reallıqları Azərbaycanın demokratik inkişafı barədə hansı qənaəti ifadə etməyə əsas verir?**

- 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan bütün istiqamətlərdə, o cümlədən demokratik inkişaf sahəsində qazandığı uğurlarla diqqətdə oldu. Ölkəmizdə iqtisadi və siyasi islahatların vəhdətinin qorunması hərtərəfli inkişafı şərtləndirdi. İnkaredilməz həqiqətdir ki, iqtisadi əlaqələrin qurulmasında maraqlı olan hər bir ölkə qarşı tərəfdə demokratik inkişafa da diqqət yetirir. Sabitliyin və qanunun aliliyinin təmin edilməsi bütün dövrlərdə əsas çağırışlar sırasındadır.

Azərbaycan Ulu Öndər Heydər Əliyevin düşünülmüş və gələcəyə hesablanmış inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində yaradılan möhkəm təməl üzərində inkişaf edərək həm investisiya cəlbediciliyini qoruyur, həm də investisiya yatıran ölkə kimi tanınır və nüfuz qazanır. Bu reallıq inkaredilməzdir: dünyada elə ölkələr var ki, iqtisadi inkişafı ilə diqqətdədir, demokratik inkişafı isə aşağı səviyyədədir. Elə ölkələr də var ki, demokratik inkişafı yüksəkdir, lakin o məmləkətlərdə iqtisadi tərəqqidən danışmaq mümkün deyil. Lakin Azərbaycan iqtisadi və siyasi islahatları birgə həyata keçirməklə qazandığı uğurlarla diqqətdədir. İnkişafın Azərbaycan modelində bu mühüm amil xüsusi yer tutur.

Ümummilli Lider Heydər Əliyevin səyləri nəticəsində 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasında ölkəmizin ictimai-siyasi həyatında mövcud olan sabitlik əsas rol oynadı. Hər bir ölkə, beynəlxalq şirkət yatıracağı investisiyaların təhlükəsizliyinə tam əmin olmaq istəyir. Bu mühüm addımın atılmasından öncə 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs əldə edildi. Ulu Öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində belə bir addımın atılması ölkəmizə bütün sahələrdə uğurlu inkişaf üçün geniş imkanlar yaratdı.

İnsan hüquqlarının qorunması, azad mətbuatın inkişafı, çoxpartiyalı sistemin yaradılması, demokratik inkişaf yönündə atılan addımlar davamlı xarakter aldı. 12 noyabr 1995-ci il tarixində milli Konstitusiyamızın qəbulundan sonra ölkəmizdə keçirilən seçki proseslərinə diqqət yetirdikdə ildən-ilə təkmilləşmənin şahidi oluruq. Azərbaycan demokratik inkişafı sahəsində hər bir yeniliyə, təkmilləşməyə açıq olduğunu həyata keçirdiyi siyasətlə təsdiqləyir.

Son 20 ildən artıq dövrdə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu sahədə əldə olunan irəliləyişlərdə də öz ifadəsini tapır. Dövlətimizin başçısı demokratikləşmə prosesini hərtərəfli inkişafın əsası kimi dəyərləndirir. Ölkəmizdə iqtisadi və siyasi islahatların vəhdətinin qorunması istiqamətində atılan addımlar göz qabağındadır.

Günümüzün reallığı budur ki, Azərbaycanın demokratiya təcrübəsi mütərəqqi nümunədir. Seçkilərin demokratikliyini, beynəlxalq standartlara uyğun keçirilməsini təmin etmək üçün seçki qanunvericiliyinə dövrün tələblərinə uyğun olaraq əlavə və dəyişikliklər edilir. Həmçinin seçki kampaniyalarında yeni təcrübələrin tətbiqinə önəm verilir. 1 sentyabr - növbədənkənar parlament seçkilərində 25 siyasi partiyanın iştirakı da ölkəmizdə demokratik inkişaf barədə aydın təsəvvür yaradır. Hər bir siyasi qüvvə öz potensial imkanlarından, cəmiyyətdə nüfuzundan maksimum istifadə edərək uğur qazana bilər. Bu seçkilər Azərbaycanın demokratik inkişafına töhfələr verəcək.

**- İqtisadi tərəqqidən bəhs edərkən regionların sosial-iqtisadi inkişafının prioritetliyi xüsusi qeyd edilir. Bu istiqamətdə atılan addımlar hansı uğurlara yol açır?**

- Ümummilli Lider Heydər Əliyevin "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisinin həyatiliyi Azərbaycanın timsalında özünün aydın ifadəsini tapır. Ulu Öndər ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəni təmin etmək üçün yeni neft strategiyasını işləyib hazırladı. 1994-cü ildə Ümummilli Liderin səyləri sayəsində "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın iqtisadi imkanlarının artmasında, beynəlxalq mövqeyinin möhkəmlənməsində əhəmiyyətli rol oynadı.

Ümummilli Lider, eyni zamanda, bu çağırışı da etmişdi ki, neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur. Ulu Öndər Heydər Əliyevin Fərmanı əsasında 1999-cu ildə yaradılan Dövlət Neft Fondu neft gəlirlərinin idarə olunmasında şəffaflıq kriteriyalarını yüksək səviyyədə qoruyur. Fondun vəsaitləri hesabına mühüm sosial-iqtisadi layihələr həyata keçirilir ki, bu da öz növbəsində ölkənin hərtərəfli inkişafına təkan verir. Neft gəlirlərinin səmərəli idarə olunması və onların iqtisadiyyatın vacib sahələrinə, xüsusilə də qeyri-neft sektoruna yönəldilməsi, yeni müəssisələrin açılması nəticəsində əhalinin rifahı daha da yaxşılaşır.

Bu gün qeyri-neft sektorunun inkişafı da neft siyasətinin məntiqi davamıdır. Dövlətimizin başçısı İlham Əliyev iqtisadiyyatın şaxələndirilməsi siyasətini uğurla həyata keçirir. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafı daim dövlətin diqqət mərkəzindədir. Bütün bölgələrimiz arasında sağlam rəqabət gedir. Regionların sosial-iqtisadi inkişafına dair dörd Dövlət Proqramı uğurla icra edilib. Bunun nəticəsində rayonların siması dəyişib, müasir tələblərə cavab verən infrastruktur layihələri icra edilib.

Bu gün qürurla işğaldan azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindən bəhs edirik. Bu ərazilərdə müasir idarəçilik sistemi yaradılıb. Şəhər və kəndlərimiz "ağıllı şəhər" və "ağıllı kənd" layihələri əsasında yenidən qurulur. Son dörd ilə yaxın dövrdə əsas hədəfin tarixi sahibinə qovuşan torpaqlarımızın dirçəldilməsi olmasına baxmayaraq, cənab İlham Əliyev, eyni zamanda, bütün regionların inkişafına xüsusi diqqət göstərir. Dövlətimizin başçısının rayonlara səfərləri mühüm sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. Regionlarımız, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşayır.

Yeni Azərbaycan Partiyasının "Yeni dövrə Yeni Azərbaycanla!" çağırışını özündə əks etdirən seçki platformasında da ölkəmizin iqtisadi uğurları, o cümlədən regionların davamlı inkişafı geniş əks olunub və bu sahədə hədəflər açıqlanıb. Reallıq budur ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən cənab İlham Əliyevin çevik və işlək mexanizmlər üzərində gerçəkləşdirdiyi sosial-iqtisadi siyasətin nəticəsi olaraq Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib. Azərbaycan xalqı xoşbəxtdir ki, ölkənin yeraltı və yerüstü sərvətləri onun xoş güzəranına xidmət edir. Vətəndaş məmnunluğunun artırılması dövlət siyasətinin əsasında dayanır.

Yeni Azərbaycan Partiyasının seçki platformasında iqtisadi inkişaf sahəsində önə çəkilən hədəflər sırasında iqtisadiyyatın şaxələndirilməsi, daha sağlam rəqabətə əsaslanan sahibkarlıq mühitinin inkişaf etdirilməsi, müasir infrastruktur quruculuğunun sürətləndirilməsi, rəqabətqabiliyyətli yerli istehsalın artırılması, kənd təsərrüfatının ənənəvi sahələrinin inkişaf etdirilməsi, ərzaq və qida təhlükəsizliyinin təmin olunması, regionların sosial-iqtisadi inkişafı və insan kapitalının inkişafı üzrə tədbirlərin davam etdirilməsi və digərləri yer alıb. Tarixi Zəfərimizin reallıqları əsasında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in uğurlu icrası bu hədəflərə yüksək səviyyədə nail olmağa stimul verəcək.

**- Mahir müəllim, Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi olaraq keçirdiyiniz görüşlər zamanı seçicilərdə hansı əhval-ruhiyyəni görürsünüz və onlara çağırışınız nədən ibarətdir?**

- Xalqımız ölkəmizin inkişafından, tarixi Zəfərimizdən - ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpa edilməsindən sonsuz qürur hissi keçirir və insanlar bununla bağlı sevinclərini bölüşürlər. Bu il seçkilər artıq bütün ölkə ərazisində keçirilir. Bundan böyük xoşbəxtlik nə ola bilər?! Torpaqlarımız azaddır, keçmiş məcburi köçkünlər doğma yurd-yuvalarına qayıtdıqları üçün sevinclidirlər.

Hər kəs yeni dövrə qədəm qoyan Azərbaycanın uğurlu gələcəyinə öz töhfəsini verməyə çalışır. Bu töhfələrdən biri, təbii ki, seçicilərimizin 1 sentyabr - növbədənkənar parlament seçkilərində fəal iştirakı, Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstəkləri olacaq. Səs verək, yeni dövrün yeni Azərbaycanının müasir dövlətçilik tarixinin növbəti möhtəşəm zəfərlərlə zənginləşməsinə birlikdə nail olaq. Bütün seçiciləri səsvermə hüquqlarından istifadə etməyə və layiqli namizədlərə dəstək olmağa çağırıram!

# Yeni Azərbaycan Partiyası qarşıda duran bütün hədəfləri reallaşdırmaq əzmindədir

**Hicran xanım, 2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Yeni Azərbaycan Partiyası bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb. Yeni dövrün reallıqları nədən ibarətdir?**

- Dünya təcrübəsi təsdiqləyir ki, əgər ölkənin daxilində sabitlik, birlik yoxdursa, beynəlxalq aləmdə də uğur qazanmaq mümkün deyil. Ona görə də biz bir daha Ümummilli Lider Heydər Əliyevin, Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərini xüsusilə qeyd etməliyik.

1993-cü ildə Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtması müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu. Ümummilli Liderimizin müdrik siyasəti nəticəsində ölkəmizin dünyanın siyasi xəritəsindən silinməsinin qarşısı alındı. Məhz onun cəsarətli və uzaqgörən qərarları sayəsində ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyi təmin olundu. Siyasi-hüquqi islahatların reallaşdırılması, müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi və ilk Konstitusiyanın ümumxalq səsverməsi - referendum əsasında qəbul edilməsi, kütləvi informasiya vasitələri üzərində senzuranın aradan qaldırılması və digər addımlar plüralizmə əsaslanan siyasi sistemin bərqərar olmasına və Azərbaycanın demokratik inkişaf yolunda inamla irəliləməsinə təkan verdi.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir", - deyən Ulu Öndər Heydər Əliyev böhran vəziyyətində olan ölkə iqtisadiyyatının dirçəldilməsi və sosial-iqtisadi yüksəlişə nail olunması üçün məqsədyönlü siyasət həyata keçirdi. Ümummilli Lider Azərbaycanı regionun aparıcı dövlətinə çevirdi, ölkəmiz etibarlı tərəfdaş kimi tanınaraq beynəlxalq münasibətlər sistemində layiqli yer tutdu.

Ulu Öndərin siyasi varisi cənab İlham Əliyev bu siyasəti uğurla davam etdirdi və bu gün Azərbaycan dünyada sabitlik və təhlükəsizlik adası kimi tanınır. Milli təhlükəsizlik siyasətinin bütün istiqamətləri üzrə - xarici siyasət, hərbi, iqtisadi, sosial, ekoloji, informasiya, ictimai, milli, dini və digər sferalarda vəzifələrin tam yerinə yetirilməsi Azərbaycanın mümkün təhdidlərdən etibarlı müdafiəsini təmin edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət nəticəsində Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətləri uğurla inkişaf etdirilir. Azərbaycanın 155 ölkənin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-2023-cü illərdə isə BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik etməsi uzaqgörən və məqsədyönlü xarici siyasətin uğurlu nəticələridir. Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının cari ilin noyabr ayında Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük etimadın bariz nümunəsidir.

Azərbaycan dinamik inkişaf yolunda inamla irəliləyir. Statistik göstəricilər bu reallığı təsdiqləyir. Belə ki, son 30 ildə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı ümumilikdə 4,9 dəfə, o cümlədən sənaye istehsalı 1,9 dəfə, kənd təsərrüfatı istehsalı 2,6 dəfə, yük daşınması 3,1 dəfə, pərakəndə ticarət dövriyyəsi 9,2 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 2079,3 dəfə, xarici ticarət dövriyyəsi 34,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3293,1 dəfə, xərcləri isə 2804,5 dəfə artıb, bu illər ərzində ölkədə 190 mindən çox müəssisə yaradılıb, xarici ticarət əlaqələri qurulmuş ölkələrin sayı 60-dan 193-ə yüksəlib, Azərbaycan valyuta ehtiyatı olmayan ölkədən 68,5 milyard ABŞ dolları həcmində strateji valyuta ehtiyatına sahib ölkəyə çevrilib, 2005-2007-ci illərdə iqtisadi artım üzrə dünyada liderliyini təmin etməklə aşağı gəlirli ölkələr qrupundan yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Bu gün Cənubi Qafqaz iqtisadiyyatının təqribən üçdə iki hissəsini Azərbaycan iqtisadiyyatı təşkil edir. Azərbaycan xaricə 35,1 milyard ABŞ dolları həcmində birbaşa investisiya yönəltməklə dost ölkələrin iqtisadiyyatına sərmayə yatıran ölkə, etibarlı sərmayədar kimi tanınıb.



**42 saylı Sumqayıt birinci seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Hicran Hüseynova yap.org.az saytına müsahibə verib**

Bu gün ölkəmizdə dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin rifahının yüksəldilməsi, ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi və digər məsələlər bu baxımdan xüsusi önəm daşıyır. Bu istiqamətlərdə güclü qanunvericilik bazası yaradılıb və davamlı olaraq təkmilləşdirilir.

**Bəs qarşıda duran hədəflər barədə nə deyə bilərsiniz?**

- Böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi və bir günlük antiterror əməliyyatı ilə Azərbaycan 30 ilə yaxın davam edən işğala son qoymaqla, öz ərazi bütövlüyü və suverenliyini bərpa etməklə yanaşı, həm Cənubi Qafqazda, həm də dünyada yeni reallıqlar yaradıb. Qeyd etdiyim kimi, bir çox məqsədlərimizə nail olmuşuq. Azərbaycan bütün sahələr üzrə inkişaf edir, davamlı iqtisadi, sosial islahatlar həyata keçirilir, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl və sistemli addımlar atılır, ölkəmizin hərbi gücü və müdafiə qabiliyyətinin artırılması üzrə mühüm işlər görülür. Nəticə etibarilə, Azərbaycanın beynəlxalq nüfuzu gündən- günə yüksəlir.

Əlbəttə ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla" şüarı ilə qatılan Yeni Azərbaycan Partiyasının seçki platformasında da əsas hədəflər öz əksini tapıb. Platformada qeyd edildiyi kimi, siyasi sabitliyin və milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması, tarixi Zəfərimizin beynəlxalq müstəvidə tam və qəti şəkildə təsbit olunması, dövlətimizin hərbi qüdrətinin daha da artırılması, "Böyük Qayıdış" Proqramının həyata keçirilməsi, regionda dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə, çoxşaxəli əməkdaşlığa nail olunması və digər hədəflər bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

**- Hazırda seçkiqabağı təşviqat mərhələsi davam edir. Bu reallıqlar fonunda seçicilərə çağırışınız nədən ibarətdir?**

- Müstəqillik tariximizdə ölkəmizin bütün ərazisində parlament seçkiləri baş tutacaq. Bu, hər birimizdə böyük qürur hissi yaradır.

Ümumiyyətlə, seçki hər bir ölkənin demokratik inkişafı üçün vacibdir. Yeni Azərbaycan Partiyası bu seçkilərə mövcud uğurların fonunda gələcək hədəfləri reallaşdırmaq naminə qələbə əzmi ilə qatılır.

Şübhə yoxdur ki, xalqın etimadını doğrultmuş Yeni Azərbaycan Partiyası bundan sonra da ölkə başçısı İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasətinin həyata keçirilməsinə öz töhfələrini verəcəkdir. Mən hər bir vətəndaşımızı seçkilərdə fəal iştirak etməyə və Azərbaycanın gələcəyinə - dünənin, bu günün və sabahın partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə, birlikdə növbəti zəfərlərə doğru inamla addımlamağa çağırıram.

# YAP yüksək nüfuza malik aparıcı siyasi qüvvədir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 10 saylı Binəqədi üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Hümbət Hüseynovun YAP Binəqədi rayon təşkilatının qərargahında şəhid ailələri və qazilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bildirib ki, Azərbaycan yeni hədəflərə doğru inamla addımlayır: "Bütün sahələr üzrə əldə olunan nailiyyətlər təqdirəlayiqdir. İqtisadi imkanlarımız daha da artacaq, əhalinin rifahı daha da yaxşılacaq. Heç şübhəsiz ki, seçicilər YAP-ın namizədlərinə səs verməklə daha qüdrətli Azərbaycan naminə düzgün seçim etmiş olacaqlar. YAP yüksək nüfuza malik aparıcı siyasi qüvvədir".

Deputatlığa namizəd Hümbət Hüseynov çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf siyasətinin başlıca istiqamətlərindən biri insan amilinə və vətəndaş rifahına əsaslanan sosial siyasətin həyata keçirilməsidir: "Bu gün əhalinin bütün təbəqələri, xüsusilə də sosial cəhətdən həssas qruplar, o cümlədən şəhid ailələri, müharibə iştirakçıları və əlilliyi olan şəxslər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar".

O qeyd edib ki, Azərbaycanın 30 il ərzində işğal altında olan torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün tam bərpasından sonra yeni dönəm başlayıb: "Azərbaycan yeni dönəmdə bütün hədəfləri reallaşdırmaq əzmindədir".

Görüş iştirakçılarından Sübhan Namazov, Əli Vəliyev və digərləri çıxış edərək vurğulayıblar ki, bu seçkilərdə də Heydər Əliyev yoluna sadiqlik nümayiş etdirərək YAP-a dəstəklərini ifadə edəcəklər.



# "Yeni Azərbaycan Partiyası xalqa xidmət yolunu seçib"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 96 saylı Goranboy-Naftalan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Bədəl Bədəlovun Goranboy rayonunda ilk dəfə səs verəcək seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Goranboy rayon təşkilatının sədri Samir Qocayev bildirib ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa olunması ilə yeni dövr başlanıb: "Qazandığımız möhtəşəm nailiyyətlərin təməlində Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır. Partiyamızın seçki platformasında da məhz Azərbaycanın qazandığı uğurlar və qarşıdakı dövrün hədəfləri öz əksini tapıb".

O, ilk dəfə səs verəcək gəncləri qarşıdan gələn parlament seçkilərində fəal olmağa çağırıb.

Deputatlığa namizəd Bədəl Bədəlov isə parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılan YAP-ın seçki platforması barədə ətraflı məlumat verib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin uğurlu nəticələrindən və qarşıda duran hədəflərdən ətraflı bəhs edib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən qürurlu, şərəfli və vətənpərvər Azərbaycan gəncliyi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda böyük fədakarlıq və rəşadət nümayiş etdirməklə döyüş meydanında tarix yazıb - Azərbaycan dövlətinin ərazi bütövlüyü və suverenliyinin təmin olunmasında misilsiz rol oynayıb. Bu, xalqımızın qürur və iftixar mənbəyidir".

Görüşdə təşviqat qrupunun üzvləri Ürfət Həsənov, Yeganə Məmmədova və Dərgah Abbasov çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar. "Yeni Azərbaycan Partiyası xalqa xidmət yolunu seçib", - deyə vurğulanıb.

Seçicilər isə inam və etimad ünvanı olan YAP-ı dəstəklədiklərini əminliklə ifadə ediblər.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd Bədəl Bədəlov YAP Naftalan şəhər təşkilatının sədri Rövlan Heydərovla birlikdə Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndinin seçiciləri ilə də görüş keçirib. Görüşdə YAP-ın seçki platforması haqqında məlumat verilib, seçicilər parlament seçkilərində fəal iştiraka dəvət olunub.

Deputatlığa namizəd Bədəl Bədəlov, həmçinin Goranboy rayonunun Borsunlu kəndində şəhid Əfqan Həmzəyevin və Naftalan şəhərində şəhid Bəhruz Quliyevin ailələrini də ziyarət edib. Eyni zamanda, seçicilərlə fərdi görüşlər keçirilib.



17 avqust 2024-cü il, şənbə № 148 (6734)

# Orta aylıq əməkhaqqı artımı...

## Pensiya və digər sosial ödənişlərin də artmasına səbəb olacaq

2024-cü ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,8 faiz artaraq 1002,8 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Orta aylıq əməkhaqqının artmasına ölkədə birinci yarımillikdə qeydə alınan əlverişli inflyasiya dəhlizi də mühüm təsir göstərib. Belə ki, 2024-cü ilin yanvar-iyun aylarında istehlak bazarında qiymətlərin dəyişməsində ciddi artım tendensiyası baş verməyib, inflyasiya ötən ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz səviyyəsində qərarlaşıb. Birinci yarımillikdə orta illik ərzaq qiymətlərində 0,6 faizlik deflyasiya qeydə alınıb, qeyri-ərzaq inflyasiyası isə 1,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə inflyasiya isə 2,4 faiz təşkil edib. İllik inflyasiya isə 1,1 faizə bərabər olub. Nəticədə əhalinin gəlirləri inflyasiya göstəricini 4 dəfə üstələyib. Bu isə müxtəlif sahələr üzrə orta aylıq əməkhaqqının yüksəlməsində əhəmiyyətli rol oynayıb. Hazırda inflyasiyanın artımı üçün ciddi fundamental əsasların olmadığı müşahidə edilir ki, bu amil 2024-cü ilin sonunda əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artımına imkan yaradır.

Orta aylıq əməkhaqqı artımına təsir edən amillərdən biri də minimum əməkhaqqının məbləğinin yüksəlməsidir. Hazırda ölkəmizdə minimum əməkhaqqını artırılması ilə bağlı təkliflər hazırlanır və növbəti ildə Azərbaycanda minimum əməkhaqqının artırılmasının gerçəkləşməsi ölkə üzrə əməkhaqlarının artımına da təsir göstərəcək. Belə ki, minimum əməkhaqqının artırılması ölkə üzrə 700-800 min vətəndaşın əmək haqqının artmasına təsir göstərəcək. Ölkəmizdə dövlət büdcəsindən maliyyələ-



şən bəzi sahələrdə əməyin ödənilməsi Vahid Tarif Cədvəli (VTC) əsasında aparılır. Bu sistemə görə, müxtəlif dərəcələrə sahib işçilərin əmək haqları minimum əmək haqlarının misilləri hesabına formalaşır. Bu baxımdan, minimum əməkhaqqının artırılması həmin işçilərin maaşlarına təsir edəcək. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri VTC-dən irəli gələn tələblərə uyğunlaşdırılır və minimum əməkhaqının artımı VTC əsasında işləyən 800 min nəfərə şamil olunur. Bu o deməkdir ki, 2025-ci ildə minimium əməkhaqqının artmasından sonra ölkəmizdə 400 min dövlət, 400 min isə qeyri-dövlət sektorunda çalışan insanın da əməkhaqqı artmış olacaq. Minimum əməkhaqqının artımı əhalinin gəlirlərinə müsbət təsir etməklə, həm də əmək nazarında mühüm fayda verir, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, məhsuldarlığının, əməyin leqallaşdırılmasını təmin edir. Bu isə ölkə üzrə əhalinin gəlir əldəetmə imkanlarının yaxşılaşması və orta aylıq əməkhaqqının nisbi artımına da səbəb olacaq.

Orta aylıq əməkhaqqının artımı, eyni zamanda, pensiayaların artmasında da əsaslı rol oynayır və bu baxımdan 2025-ci ildə pensiyalardakı artım məbləği bu göstəriciyə əsasın müəyyənləşəcək. Belə ki, orta aylıq əməkhaqqının 10 faiz artması pensiayaların da eyni rəqəm üzrə artımını təmin edəcək.

Hökumətin ortamüddətli dövr üzrə hədəflərində ölkədə yüksək inkişafın və iqtisadi artımın cəmiyyətin bütün üzvlərinin sosial rifahının yaxşılaşmasına, iqtisadiyyat inkişaf etdikcə vətəndaşların gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməsi, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılması nəzərdə tutulub. Strateji prioritetlər dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə inkişaf çərçivəsinə uyğun olaraq əməkhaqqı artımlarının bütün sektorları əhatə etməsi hədəflənib. Bu siyasət tədbirləri üzrə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi qorunması da əsas sosial çağırış kimi qarşıya qoyulub. Bu istiqamətdə əsas istiqamətlərdən biri kimi əhalinin işlə təminatının yaxşılaşdırılması və gəlirəldə etmə mənbələrinin daha da gücləndirilməsi, özəl sektorda yeni iş yerlərinin yaradılması, məşğulluğu təşviq edən sahibkarlıq fəaliyyətinin stimullaşdırılması da diqqətdə saxlanılacaq. Xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq ki, bu da, ümumilikdə, minimum və orta aylıq əməkhaqqı artımlarını təmin etməklə aradakı nisbəti də azaldacaq.

Hökumətin iqtisadi ssenarilərinə əsasən, orta aylıq əməkhaqqının həcmi 2024-cü ilin sonunda 1020 manat, 2025-ci ildə 1038-1050 manat, 2026-cı ildə 1095-1150 manat, 2027-ci ildə 1153-1200 manata çatacaq.

***E.CƏFƏRLİ***

# Türk dünyasının ağır itkisi...

## Azərbaycan ədəbiyyatının yaxın dostu, yazıçı Yaqub Öməroğlu vəfat edib



Nə qədər "olmaz" dediklərimizi oldurdu bu dünya, nə qədər "getməz" dediklərimizi aldı, apardı. Yoxluğunu xəyal belə etmədiyimiz, heç vaxt ağlımıza gətirmədiyimiz insanlara nekroloqlar yazdırdı, xatirələrimizi sətirlərə düzdürdü. İçimiz yana-yana, gözümüz qan yaş tökə-tökə...

Türk dünyasının böyük qızı, dəyərli ziyalı xanım, Türk ədəbiyyatı, mədəniyyəti üçün əvəzedilməz işlər görmüş mərhum millət vəkilimiz Qənirə Paşayevanın vəfatından bir il ötməmiş ikinci ağır itki ilə sınandı Türk dünyası...

Bu dəfə ümumtürk ədəbiyyatının layiqli nümayəndəsi və təbliğatçısı, Avrasiya Yazarlar Birliyinin sədri, "Qardaş qələmlər" dərgisinin təsisçisi və baş redaktoru, tanınmış yazıçı Yaqub Öməroğlu amansız xəstəlikdən dünyasını dəyişdi.

Avqustun 16-sı səhər saatlarında aldığımız bu acı xəbər təkcə öz ölkəsində Yaqub bəyi tanıyanları, sevənləri deyil, bütün Türk dünyasını yasa qərq etdi. Yaqub Öməroğlu türk sevdalı bütün könüllərə toxunan, millətçi ruhu, "bəy əfəndi" duruşu ilə bircə dəfə də olsa üz-üzə gəldiyi, kəlmə kəsdiyi hər kəsin sevgisini, sayğısını qazanmış şəxsiyyətdir.

Azərbaycan ədəbiyyatının yaxın dostlarından və təbliğatçılarından olan Yaqub Öməroğlu 30 ilə yaxındır ki, ədəbiyyatımızın Türkiyədə və ümumtürk məkanında tanıdılması və təbliği yönündə çox böyük işlərə imza atıb.

Türkiyədə 200-dən çox azərbaycanlı müəllifin kitabının çap edilməsində Yaqub Öməroğlunun xüsusi əməyi olub. 2006-cı ildə onun təşəbbüsü və sədrliyi ilə yaradılan Avrasiya Yazarlar Birliyi tərəfindən 2017-ci ildə ilk dəfə Türkiyənin İstanbul şəhərində Türk Dünyası Gənc Yazarlar görüşü, ənənəvi olaraq təşkil olunan və bütün türkdilli ölkələri əhatə edən "Mahmud Kaşğarlı Beynəlxalq Hekayə Müsabiqəsi", "Türk Dünyasında İlin Adamı", "Türk Dünyası çevirmənləri", "Türk dünyası ədəbiyyat dərgiləri" konfransları, dram yazarları arasında pyes müsabiqəsi və sair kimi Türk Dünyası ədəbiyyatının, mədəniyyətinin inkişafı üçün önəmli rol oynayan mühüm ədəbi-mədəni layihələr məhz Yaqub Öməroğlunun rəhbərliyi ilə həyata keçirilib. Birliyin təsis etdiyi və illərdir Türk dünyasının ən parlaq imzalarına verilən "İlin Ədəbiyyat Adamı" mükafatı xüsusi önəm kəsb edir. 2012-ci ildə həmin mükafata Azirbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar layiq görülüb.

Y.Öməroğlunun təsis etdiyi və baş redaktoru olduğu "Qardaş qələmlər" dərgisi Türk dünyasının yeganə ortaq ədəbi dərgisidir. Bu dərginin səhifələrində Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrindən tutmuş gənc qələm sahiblərinə qədər istedadlı, dəyərli ədiblərin, şairlərin əsərləri çap olunub. Üç ildən çoxdur Yazı heyətinin Azərbaycan təmsilçisi olduğum dərgi eyni zamanda ədəbiyyatımızda, mədəniyyətimizdəki mühüm hadisələrə sonsuz diqqəti ilə də seçilir. Belə ki, tez-tez dərginin Azərbaycan ədəbiyyatına, ədəbiyyatımızın görkəmli nümayəndələrinə həsr olunmuş xüsusi sayları işıq üzü görürdü ki, burada da təkcə azərbaycanlı müəlliflərin deyil, bütün türk dünyasından müəlliflərin həmin yazıçı, şair haqqındakı yazıları yer alırdı. Yəni Yaqub Öməroğlu təkcə dərgini çap etməklə kifayətlənmir, həm də türkdilli xalqların bir-birini araşdırmasına, oxumasına, öyrənməsinə və öz düşüncə tərzi ilə şərh etməsinə yol açırdı.

Avrasiya Yazarlar Birliyinin nəşriyyat və poliqrafiya qurumu olan "Bengü" Nəşrlər Evi məhz Yaqub Öməroğlunun rəhbərliyi ilə nadir çap məhsulları ilə türk dünyasının tarixini, mədəniyyətini, şəxsiyyətlərini tanıdaraq sevdirib. Sözügedən Nəşrlər evində Azərbaycanın onlarla tanınmış şair və yazıçılarının kitabları Türkiyə türkcəsinə tərcümə edilərək çap olunub.

Təbii ki, ölkəmiz də ən yaxın dostu Yaqub Öməroğlunun fədakar əməyini görməzdən gəlməyib, hər zaman ən yüksək şəkildə dəyərləndirib. 2012-ci ildə Azərbaycan Yazıçılar Birliyinin ilk dəfə təsis olunan Bəxtiyar Vahabzadə Beynəlxalq Mükafatının ilk təltifçilərindən biri məhz Y.Öməroğlu olub.

Həmçinin, o, 2021-ci ildə Türkiyədə və ümumtürk dünyasında Azərbaycan ədəbiyyatına verdiyi dəyərli töhfələrə görə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Fəxri dostu" adına layiq görülüb.

Mərhum yazıçının ilk hekayələr kitabı da məhz Azərbaycanda işıq üzü görüb. Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü və dəstəyi ilə 2019-cu ildə "Qanun" nəşriyyatında işıq üzü görən "İki çinar" adlı kitabda Yaqub Öməroğlunun müxtəlif zamanlarda yazdığı hekayələri toplanıb. Kitab qısa müddətdə təkcə Azərbaycan və Türkiyədə deyil, ümumən Türk dünyasında böyük əks-səda yarada bilmişdi. Hər zaman yaradıcılığıma bir ustad kimi dəyər verən, imzamın Türk dünyasında tanınmasında əvəzsiz rolu olan Yaqub hocamızın ilk kitabının tərcüməçilərindən biri və redaktoru olmaq ona olan vəfa borcum idi. Bu məsuliyyətli işin mənə həvalə olunmasından hər zaman sevinc və qürur duymuşam.

2020-ci ildə isə Yaqub Öməroğlunun təşəbbüsü ilə mənim müəllifi olduğum "Şahanənin nağılı" kitabım Türkiyə türkcəsinə tərcümə edilərək "Bengü" nəşriyyatında işıq üzü gördü.

Əgər yaşasaydı 5 gündən sonra- avqustun 22-də Yaqub hocamızın 58 yaşı münasibəti ilə yazılar yazacaq, onu sosial şəbəkə hesablarımızdan təbrik edəcək, şübhəsiz, ona can sağlığı və uzun ömür arzulayacaqdıq. Nə yazıq ki, amansız xəstəlik bütün arzularımızı dilimizin ucunda, bütün diləkləri gözümüzdə qoydu. Ona nəinki uzun ömür qıydı, heç 58-ci yaşını da qarşılamağa imkan vermədi. Beş gün erkən zamanda yenə də Yaqub Öməroğludan yazırıq, amma içimiz yana-yana, qəlbimiz qan ağlaya-ağlaya vida yazısı kimi... Eh zalım fələk...

Tanınmış yazıçı, Ümumtürk ədəbiyyatının layiqli təbliğatçısı Yaqub Öməroğlunun işıqlı xatirəsi hər zaman qəlbimizdə yaşayacaq. Bu acı itki münasibəti ilə Yaqub bəyin ailəsinə, sevənlərinə, oxucularına və bütün Türk dünyasına başsağlığı veririk!

Allah rəhmət eləsin!

***Şahanə MÜŞFİQ***

# ABŞ-da seçki marafonu: Hansı namizəd irəlidədir?

Amerika Birləşmiş Ştatlarında (ABŞ) cari ilin noyabrında keçiriləcək növbəti prezident seçkilərinin kəskin rəqabət şəraitində baş tutacağı ilə bağlı ehtimallar özünü doğruldur. Seçki marafonu irəlilədikcə namizədlərini irəli sürmüş Respublikaçılar və Demokratlar partiyaları arasında mübarizə də qızışaraq bir sıra hallarda adi etik və siyasi mədəniyyət çərçivələrini aşır. Respublikaçılar seçkilərə sabiq prezident Donald Trampın namizədliyi ilə gedir. Demokratlar isə marafona hazırkı prezident Co Baydenin namizədliyi ilə başlasalar da, hazırda onların mümkün namizədi qismində vitse-prezident Kamala Harris çıxış edir. Müşahidə edilən odur ki, həm Donald Tramp, həm də Kamala Harris rəqibini üstələməkdən ötrü qarşılıqlı ittihamları getdikcə daha da sərtləşdirirlər.

## Müxtəlif rəy sorğuları və fərqli nəticələr

Seçki marafonunun əvvəlində demokratlar məlum teledebatdan sonra Co Baydenin namizədliyini Kamala Harrislə əvəzləyəndən sonra ilk vaxtlarda Donald Tramp mütləq favorit kimi görünürdü. Ancaq günlər ötdükcə aradakı fərq azalıb. Bu günlərdə ayrı-ayrı mərkəzlər və vətəndaş cəmiyyəti təsisatları cəmiyyətdəki seçki əhval-ruhiyyəsini müəyyənləşdirmək üçün davamlı olaraq rəy sorğuları keçirirlər. Nəticələr də fərqlidir.

ABŞ-ın sabiq dövlət başçısı və qarşıdakı prezident seçkilərində Respublikaçılar Partiyasının namizədi Donald Tramp potensial seçicilər arasında vitse-prezident və Demokratların mümkün namizədi Kamala Harrisi dörd faiz üstələyir. Bunu "Rasmussen Reports" sosiologiya kompaniyasının rəy sorğusu göstərib. Sorğunun nəticələrinə əsasən, amerikalı seçicilərin 49 faizi Trampa, 45 faizi isə Harrisə dəstəyini ifadə edib.

Həmçinin respondentlərin 3 faizi səsini başqa namizədə verəcəyini, daha 2 faizi isə seçimində hələ qərarsız olduğunu bildirib. Sorğu avqustun 8-14-də 1885 nəfər potensial seçici arasında aparılıb.

ABŞ-ın sabiq prezidenti Donald Tramp seçki yarışında amerikalı seçicilər arasında dəstək baxımından vitse-prezident Kamala Harrisi cəmi bir faiz qabaqlayır. Belə fərqli nəticəni isə "Fox News" telekanalının keçirdiyi rəy sorğusu göstərib.

Sorğunun nəticələrinə görə, seçicilərin 50 faizi Trampa, 49 faizi isə Harrisə səs verəcəyini bildirib. Eyni zamanda, respondentlərin əksəriyyəti hər iki namizədi bəyənmir: respondentlərin 53 faizi Tramp, 51 faizi Harris haqqında mənfi fikirdədir. Seçicilərin əksəriyyəti iqtisadiyyatı (38 faiz), miqrasiyanı (14 faiz) və abortları (14 faiz) namizədlərin qarşısında duran əsas problemlər kimi görür. Respondentlərin yalnız 4 faizi xarici siyasət məsələlərini prioritet hesab edir.

Sorğu qeydiyyatdan keçmiş 1000-dən çox amerikalı seçicinin iştirakı ilə keçirilib.

"Nyu-York Tayms" qəzetinin son sorğusu isə artıq üç ştatda - Pensilvaniya, Miçiqan və Viskonsində Harrisin Trampın qarşısında üstünlük qazandığını göstərir. "Siena" kollecinin avqustun 5-dən avqustun 9-dək apardığı araşdırmaya görə, oradakı seçicilərin 50 faizi Harrisə səs verməyə hazırdır. Əvvəllər bu ştatlarda Cozef Bayden Trampa uduzurdu. İndi isə üç ştatda yalnız 46 faiz seçici Trampı dəstəkləməyə hazırdır. Ştatlar üzrə götürsək, Tramp Miçiqanda 5 faiz, Viskonsin ştatında isə 6 faizə qədər səs itirib. Pensilvaniya seçicisi, yəqin ki, qubernator Coşua Şapironun Harrisin vitse-prezidenti seçilməməsindən inciyib, ona görə də Trampla Harrisin arasında səs fərqi qadın namizədin xeyrinə cəmi 2 faiz təşkil edir.

Sorğuya əsasən, "üçüncü namizəd" faktoru Harrisə qarşı işləmir. Müstəqil namizəd kiçik Robert Kennedinin reytinqi aşağıdır və daha da düşməkdədir. Onun populyarlığı ciddiyə alınmayacaq səviyyədədir. Kennedilər klanının son nümayəndəsi gəncliyində sürdüyü həyat tərzi ilə ABŞ seçicisi üçün "oddan törəmiş kül" statusundadır.

## Harrisin vədləri

Sorğuların nəticəlrini təhlil edən analitiklər bildirirlər ki, Bayden namizədlikdən çəkilənə qədər Harris də ölkənin sevimli siyasətçilərindən biri deyildi. İndi bütün partiya onun ətrafında birləşdiyindən və o, demokratların rəsmi namizədi olduğundan, vitse-prezident getdikcə populyarlaşır. O, artıq kölgədən çıxıb və ön plandadır.

Harrisin reytinqinin artmasına onun mitinqlərdə verdiyi vədlər də öz təsirini göstərib. Məsələn, Harrisin Nevada mitinqində verdiyi vədlərdən biri bəxşiş ("çaypulu") vergisini ləğv etməyə çalışacağı barədə olub. Bu, ABŞ-da çox vacibdir. Ölkədə bəxşişlər iaşə işçilərinin gəlirlərinin əhəmiyyətli hissəsini təşkil edir. ABŞ-da onları vermək əxlaq norması hesab olunur və bir çox yerlərdə bu, məcburidir. Xidmət üçün ödənilən "çaypulu" bəzən hesaba avtomatik daxil edilir. Onlardan verginin ləğvi vədi orta təbəqənin daha çox qazanmasına imkan verərdi.

Qeyd edək ki, son bir neçə gün ərzində Harris və onun vitse-prezidentliyə namizədi, Minnesota qubernatoru Tim Valz beş dəfə mitinq keçirib. Arizonada onların mitinqinə 15 mindən çox insan toplaşıb. Əhəmiyyətli olan odur ki, Harrisin komandası vitse-prezidentin çıxışları üzərində çox yaxşı işləyir və müəyyən vəziyyətlərə çevik reaksiya verir.

Harris Detroytda Fələstin tərəfdarları ilə şifahi mübahisə edib. Artıq Arizonada o, atəşkəsə və girovların İsrailə təhvil verilməsinə çağırıb. İspan seçicilər Harris haqqında getdikcə daha çox müsbət qənaətə gəlirlər.

"Nyu-York Tayms" qəzetinin yazdığına görə, Harris sonrakı sorğularda Trampı 10 faiz qabaqlaya biləcək. Hələlik onun tərcümeyi-halında heç bir kompromat, prinsipcə, seçicilərin ona səs verməkdən imtinasına səbəb yarada biləcək faktlar yoxdur. Bu kimi amillər isə seçki marafonunda Harrisin xeyrinə işləyir.




## Trampın ittihamları artır

Donald Tramp Kamala Harrisin seçki marafonunda reyinqini əhəmiyyətli dərəcədə artırmasının fərqindədir. Buna görə də o qarşı tərəfə yönəlik daha sərt ittihamlar səsləndirir. Tramp rəqibinin platforma təşəbbüslərini, xüsusən də xidmət sahəsində çalışan işçilər üçün bəxşiş vergisini ləğv etmək ideyasını oğurlamaqda günahlandırıb.Bununla bağlı Tramp öz "Truth" sosial şəbəkəsindəki hesabında yazıb. "Bal ayı dövrünün sonuna yaxınlaşan və anketlərdə ciddi şəkildə mənə uduzmağa başlayan Kamala Harris mənim bəxşiş vergisinin ləğvi siyasətimi indicə kopyaladı. Siyasi məqsədi Trampın ideyası idi. Onun öz ideyaları yoxdur. O, onları yalnız məndən oğurlaya bilər", - deyə Tramp bildirib.

Son olaraq isə Tramp Harrisi ABŞ-a 20 milyon qanunsuz miqrant gətirməkdə ittiham edib. "Ən yüksək dövlət postuna can atan ABŞ-ın vitse-prezidenti Kamala Harrisin uğursuz miqrasiya siyasəti 20 milyon qeyri-qanuni miqrantın ABŞ-a daxil olmasına şərait yaradıb", - deyə Tramp vurğulayıb. O fikirlərinin davamı kimi bildirib: "Ən azı 20 milyon insanın ölkəmizə qanunsuz daxil olmasına imkan verdi. O, miqrantlara vətəndaşlıq verməklə, onların ictimai səhiyyə və sosial təminatdan pulsuz istifadə etməsinə nail olmaq istəyir".

Qeyd edək ki, miqrasiya böhranı ABŞ-da hazırkı seçki kampaniyasının əsas məsələlərindən birinə çevrilib. Respublikaçılar faktiki olaraq onun kəskin artmasına görə demokratları günahlandırırlar. Tramp dəfələrlə söz verib ki, seçkidə qalib gəlsə, ABŞ tarixində ən böyük qanunsuz miqrant deportasiyasını təşkil edəcək.

***MÜBARİZ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Azərbaycançılıq!



## Milli ahəngdarlığımızı təmin edən ideologiya

*Yeganə BAYRAMOVA*

İdeologiya bir xalqın adət-ənənəsini, həyat tərzini və fəaliyyət istiqamətlərini özündə ehtiva edən baxışlar sistemidir. Bir sözlə, bu sistem hər bir xalqın həyatında oynadığı əhəmiyyətli və vacib rolla onun milli-mənəvi dirçəlişinə, siyasi varlığını isbatlamağa və dövlətçiliyini möhkəmləndirməyə şərait yaradır.

Tarixi təcrübə də göstərir ki, cəmiyyətdə müəyyən inkişaf vektorlarını müəyyənləşdirən ideologiya olmadıqda dövlətin siyasi, iqtisadi və sosial siyasətində boşluqlar yaranır. Bu isə öz növbəsində cəmiyyət daxilində birbirinə zidd, ənənəvi sosial-mənəvi dəyərlərlə vəhdət təşkil etməyən yad ideyaların yaranmasına gətirib çıxarır.

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən BDU-nun tarix fakültəsinin müəllimi, tarix elmləri doktoru Nuru Məmmədov bildirib ki, xalqımızın kimliyini, mənsubiyyətini özündə ehtiva edən azərbaycançılıq ideologiyası hər şeydən əvvəl ölkəmizdə milli ahəngdarlığı təmin edir: "Xalqımızı mənəvi olaraq dirçəldən, soydaşlarımızın kreativ potensialını reallaşdıran, kütləvi şüuru uğurlu dövlət quruculuğunun başlıca amilinə çevirən ideoloji sistem 1993-cü ildə Heydər Əliyevin siyasətində öz əksini tapdı. Bununla da, cəmiyyəti vahid ideya və məqsəd ətrafında birləşdirən milli idelogiyamız-azərbaycançılıq ideologiyası yarandı. Bununla da, azərbaycançılıq ideologiyası şovinizm əvəzinə cəmiyyətə vətənpərvərlik gətirməklə, etnoeqoizmi məhv etdi və Azərbaycanda kütləvi şüurun transformasiyası üçün məqbul olan ilkin amili formalaşdırdı. Bu məqamda Heydər Əliyevin 2001 -ci il noyabr ayının 9-da Dünya Azərbaycanlılarının I qurultayında söylədiyi fikirləri qeyd etmək yerinə düşər: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur duymalıdır və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Heydər Əliyevin bu fikirləri azərbaycançılığın cəmiyyətimizin bu günü və gələcəyinin müasir ideoloji qavrayışı ilə üst-üstə düşdüyünü nümayiş etdirdi. Bu mənada, azərbaycançılıq ideologiyası azərbaycanlılarda kosmopolit və xəyal düşüncələrini sıxışdıraraq, konkret rasional ideyalar formalaşdırdı. Artıq dövlətin maraqları həm də cəmiyyəti düşündürür və xalq firavan həyat naminə ölkənin gələcəyi üçün hakimiyyətlə sıx işləyir".

Tarixçi qeyd edib ki, bu gün də azərbaycançılıq ideologiyası cəmiyyətdə perspektiv inkişaf vektorları haqqında düşünmək və ümumi mənafe naminə birgə hərəkətetmə vərdişləri yaradıb: "Beləliklə də, aydın olur ki, azərbaycançılıq ideologiyası xalqımızın kütləvi siyasi şüur, kütləvi siyasi mədəniyyət və kütləvi siyasi davranış kimi sosial-tarixi və siyasi faktorlara sahib olmasını şərtləndirdi, həmçinin uğurlu transformasiya prosesinə təkan verdi.

Bununla da, azərbaycançılıq ideologiyası Azərbaycan xalqının siyasi-ictimai və sosial bütövlüyündə mühüm faktor kimi çıxış edir. Onun həm Azərbaycanda, həm də ölkənin sərhədlərindən kənarda təbliği, təşviqi kompleks və sistemli şəkildə həyata keçirilməlidir.

Vətən təəssübünü, qeyrətini və vətəndaş həmrəyliyini hər şeydən, bütün hisslərdən uca tutmağı təlqin edən və insanları buna inandırmağı bacaran ideologiya olmalıdır. Bir sözlə, ideologiya Azərbaycan reallığının özünü əks etdirməli, yəni Azərbaycanın özü olmalıdır. Məhz Ulu Öndər əvvəlki lokal yanaşmalardan fərqli olaraq, regional və qlobal mövqedən çıxış edərək müxtəlifmillətli, müxtəlifdinli, müxtəlifdilli və müxtəlifəqidəli insanların yaşadığı Azərbaycan reallığının özündən irəli gələn azərbaycançılıq ideologiyası ilə cəmiyyətdə yaranan boşluğu aradan qaldırmağa nail oldu. Azərbaycançılıq - hansı dini cərəyana, milli mədəniyyətə və milli tarixə mənsub olmalarından asılı olmayaraq, Azərbaycan sakinlərinin əksəriyyətinə xas ən ümumi cəhətlərin sintezidir. Bu ideyanın parametrlərini Heydər Əliyev kompakt şəkildə ifadə etmişdi: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan soydaşlarımız üçün əsas ideya olub". Deməli, müxtəlif ənənələr cəmiyyətdə təcrid olunmuş qaydada deyil, bir-biri ilə həmahəng formada təzahür edir. Bu ideologiya insanın özünə, daxili aləminə, imkanlarına və əməllərinə əsaslanmaqla milli mədəniyyət və meyillərin, dini və iqtisadi münasibətlərin, müxtəlif siyasi-iqtisadi formasiyalarda cəmiyyətin inkişafının spektrlərini özündə saxlayır. Bu ideologiyanın həyat qabiliyyətli olmasının əsas səbəbi Azərbaycan ənənələrinin geniş tarixinə əsaslanması və baş verən dəyişikliklərə dərhal münasibət bildirməklə çevik adaptasiya olunmasıdır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə hazırlanmışdır**

# Müslüm əbədi yaşayacaq!

*Yeganə BAYRAMOVA*

Müslüm Maqomayev haqqından danışmaq çətin və məsuliyyətlidir. Çünki o, dahi sənətkar, mühüm şəxsiyyət, bəşəri insan idi. İfa tərzi, səsi, sənəti SSRİ kimi hüdudsuz, qapalı və qaranlıq bir ölkənin çərçivəsinə sığmırdı.



Bu gün-avqustun 17-də dünya şöhrətli sənətkarın doğum günüdür. Müslümün sənətini, şəxsiyyətini bir neçə səhifədə izah etmək mümkünsüz olsa da, onun bəzi çalarlarını vurğulamaq istərdik...

Dahi sənətkar vətənpərvərlikdən bəsit danışmazdı. Bəstələdiyi "Azərbaycan" mahnısını təkrarsız ifa etməklə doğma Vətəninə olan böyük məhəbbətini göstərmişdi. Təsadüfi deyil ki, bu əsər müasir ölkəmizin müsiqili rəmzinə, vizit vərəqəsinə çevrilib.

Hətta bu əsər Ulu Öndərimiz tərəfindən o qədər sevilirdi ki, o bir dəfə Müslüm Maqomayev haqqında çıxış edəndə "Əgər Müslümün heç bir şeyi olmasaydı, "Mənim Azərbaycanım" mahnısına görə o, ən yüksək hörmətə layiqdir" ifadəsini işlətmişdi. Müslüm Maqomayev təkcə Azərbaycanda deyil, Sovetlər birliyində, eləcə də bütün dünyada tanınan və sevilən bir müğənni idi. Onun Azərbaycana həsr etdiyi bu mahnı ölkəmizi bütün dünyada tanıtmışdı.

2002-ci ilin sentyabr ayının 6-da Müslüm Maqomayevin 60 illik yubileyi ilə əlaqədar Heydər Əliyev ona "İstiqlal" ordeni təqdim edərkən demişdi: "Müslüm çox mahnılar yaratmışdır, yəni o, özünü bəstəkar kimi də gözəl tanıtmışdır. Ancaq onun ən görkəmli mahnısı Azərbaycana həsr etdiyi mahnıdır. Bu mahnı Azərbaycanın himni kimi səslənir."

Müslümün sənəti dünən də yüksək qiymətləndirilirdi, bu gün də ölkə rəhbərliyi tərəfindən onun sənətinə dəyər verilir. 2022-ci ildə dünya şöhrətli sənətkarın 80 illik yubileyi ərəfəsində Prezident İlham Əliyevin tapşırığına əsasən Dənizkənarı Milli Parkda abidəsinin ucaldılması bu dəyərin bariz nümunəsidir. Ölkə başçısının abidənin açılış mərasimində dediyi kimi, Bakının gözü olan bulvarda dahi sənətkarlarımızın ruhları dolaşır, o cümlədən Müslümün. Ona görə bu abidəyə yaxınlaşan bizim vətəndaşlarımız "Salam, Müslüm" deyəcək və Müslüm əbədi yaşayacaq...

# Sərhədlərimiz etibarlı əllərdədir...



## 105 yaşlı DSX!

*Yeganə BAYRAMOVA*

Azərbaycan əsgəri Vətənin havasını qoruyur ki, udmağa nəfəsi olsun, suyunu qoruyur ki, damarlarında qanı olsun, torpağını qoruyur ki, üzərində gəzməyə haqqı olsun. Vətən keşikçiləri doğulub boya-başa çatdıqları yurdu qorumaqla onun gerbinə, bayrağına, himnindəki misralarına çevrilə bilir. Yəni Azərbaycan əsgəri sərhədlərimizin etibarlı müdafiəsini təşkil etməklə müstəqillik rəmzlərinin də qoruyucusuna çevrilir.

Bu baxımdan "Sərhəd" anlayışı hər bir xalq üçün müqəddəs və əzizdir. Ona görə müqəddəsdir ki, sərhədlər aid olduğu ölkənin müstəqilliyinin hökm sürdüyü ərazinin bütövlüyünü və toxunulmazlığını bildirir. Beləliklə, hər bir vətəndaş sərhəddəki, səngərdəki döyüş növbəsindəki əsgərə arxalanır.

Sabah Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramıdır. Azərbaycanda milli sərhəd xidmətinin yaranma tarixi Azərbaycan Xalq Cumhuriyyəti (AXC) dövrünə, 1918-ci ilə gedib çıxır. Həmin il iyunun 22-də Azərbaycanda ilk dəfə olaraq Poylu sərhəd postu yaradılıb, digər istiqamətlərdə də bənzər məntəqələrin yaradılması işinə başlanılıb. 1919-cu il avqustun 18-də Azərbaycan Demokratik Respublikası Nazirlər Kabineti "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qanun qəbul edib. Bundan sonra əlavə olaraq 99 post yaradılaraq Azərbaycan sərhədlərinin mühafizəsi təşkil edilib. Lakin 1920-ci ildə AXC süqut etdiyindən sərhəd mühafizəsinin formalaşması prosesi yarımçıq qaldı.

1990-cı illərin əvvəlində tarixinin ən ağır günlərini yaşayan Azərbaycan ermənilərin işğalçı siyasəti nəticəsində torpaqlarının 20 faizini itirdi. 30 ilə yaxın müddətdə 132 kilometrlik İran-Azərbaycan sərhədini nəzarətdə saxlayan Ermənistan bu illər ərzində həmin əraziləri "boz zona" kimi istifadə edərək qaçaqmalçılıq fəaliyyəti ilə məşğul olub.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra isə qonşu dövlətlərlə sərhədlərini daha da mökhkəmləndirdi. Azərbaycan Türkiyə, Rusiya, İran, Gürcüstan və Ermənistanla sərhəddə yerləşir. Xəzər dənizi vasitəsilə isə Türkmənistan və Qazaxıstanla sərhədləri var.

İkinci Qarabağ müharibəsində DSX-nin Sərhəd Qoşunları xüsusi qəhrəmanlıq göstərib. DSX bölmələri müharibənin ilk günlərindən döyüşlərə qatılıb, Xudafərin körpüsünü və Zəngilanın Ağbənd qəsəbəsini düşmən işğalından azad edib. Azərbaycan sərhədçiləri Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşanın azad olunmasında da qəhrəmanlıqlar göstəriblər.

Bu gün ölkəmizdə nizami ordu səviyyəsində, çevik, mütəşəkkil, yüksək döyüş hazırlığına malik Dövlət Sərhəd Xidməti mövcuddur. Azərbaycanın müqəddəs sərhədləri etibarlı və inamlı əllərdədir...

# Bəşəri dəyərlər naminə...



*Yeganə BAYRAMOVA*

Dünyada əhalinin sayının, iqtisadi böhranın, ekoloji və sağlamlıq problemlərinin, aclıq dərəcəsinin, müharibə və təbii fəlakətlərin çoxalması humanitar yardım anlayışını gündəmə gətirir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) saytında qeyd edilən məlumata görə, dünyanın müxtəlif yerlərində münaqişələrə görə evlərini tərk edən insanların sayı durmadan artır. Məlumatda həmçinin bildirilib ki, hazırda 68 milyondan artıq köçkün şəxs var. Uşaqlar silahlı qruplar tərəfindən götürülür və döyüşdürülür. Eyni zamanda qadınlar zorakılığa məruz qalır və alçaldılır. Ehtiyac içərisində olanlara yardım əlini uzadan humanitar işçilər isə tez-tez hədəfə alınır və təhlükə mənbəyi olaraq davranılırlar.

BMT-nin hesabatında, həmçinin qeyd edilib ki, 2 milyard insanın gündəlik gəliri 3,2 dollar olduğu halda, 7,53 milyon nəfər gündə cəmi 1,9 dollar qazana bilir. 2017-ci ildə məcburi köçkünlərin sayı isə 2,9 milyon nəfər artaraq 68,5 milyona çatıb. BMT və digər beynəlxalq təşkilatların göndərdikləri humanitar yardımların 60 faizi 10 ölkənin, o cümlədən 14 faizi Suriyanın, 9 faizi isə Yəmənin payına düşüb. Qaçqınları qəbul edən Türkiyə və Yunanıstan da bu onluğa daxil olub. Humanitar donor kimi Türkiyə özü qaçqınlara 8 milyard dollar vəsait ayırıb. Donorlar arasında sonrakı yerləri ABŞ (6,68 milyard dollar) və Almaniya (2,99 milyard dollar) tutub. Ümumilikdə, 2017-ci ildə qlobal humanitar yardımın həcmi 901 milyçon dollar artaraq 27,3 milyarda çatıb. Fərdi donorların humanitar yardımları isə 6 milyard dollar təşkil edib.

Yeri gəlmişkən, avqustun 19-u dünyada Beynəlxalq Humanitar Yardım Günü kimi qeyd edilir. Bu gün BMT tərəfindən 2008-ci ildə təsis edilib. İlk dəfə isə 2009-cu il avqustun 19-da qeyd olunub. Həmin tarix ehtiyacı olan insanlara humanitar yardım göstərərkən həyatını itirənlərin xatirəsinə həsr edilib.

Xüsusilə vurğulamaq lazımdır ki, humanitar yardım fəalları dünya miqyasında milyonlarla insanın həyatını qurtarmaq üçün köməklərini əsirgəmirlər. Onlar münaqişə zonalarında, təbii fəlakətlərin baş verdiyi ərazilərdə yardıma ehtiyacı olanlara köməyə tələsir və bəzən həyatlarını riskə atırlar. Humanitar yardım qrupları aclıqdan, müharibələrdən, cinsi ayrı-seçkilik və şiddətdən, təbii fəlakətlərdən əziyyət çəkənlərə, o cümlədən qaçqın və məcburi köçkünlərə, uşaqlara, təmiz suya ehtiyacı olanlara kömək əllərini uzadırlar.


## Elan

"İpək Yolu Sığorta" ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir. Cəmiyyətin yeni ünvanı: Bakı şəhəri AZ 1044, Xəzər rayonu, Binə qəsəbəsi, Heydər Əliyev prospekti 573, "ASG Business Aviation" MMC-nin inzibatı binası, 4-cü mərtəbə



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4838**
**Sifariş: 1841**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Mübariz Abdullayev